Bizim Xəzər Dəniz Gəmiçiliyinin donanması Azərbaycanın çox böyük sərvətidir. O, böyük işlər görür və gələcəkdə də görəcəkdir.

Heydər ƏLİYEV

DƏNİZ

"AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ" QSC-nin qəzeti

4 may 2018-ci il № 33-36 (9219) | Qəzet 1931-ci ildən nəşr olunur | www.seanews.az | Qiyməti 50 qəpik

BU SAYIMIZDA

PREZİDENT İLHAM ƏLİYEV YENİ İNŞA EDİLMİŞ "TUFAN" TİPLİ SƏRHƏD GÖZƏTÇİ GƏMİSİ İLƏ TANIŞ OLUB

Hər bir xalqda olduğu kimi, Azərbaycan xalqının da elitasının formalaşması uzun tarixi dövrü əhatə edir. Əsl ziyalıları ərsəyə gətirmək, müasir inkişafın tələblərinə cavab verən, xalqın dünyada tanınmasına ürəkdən çalışan milli elitanı qurub yaşatmaq heç də asan iş deyil.

Səh. 2

DƏNİZ AKADEMİYASININ TƏLƏBƏLƏRİ "AXDG" QSC-DƏ TƏCRÜBƏ KEÇİBLƏR



Azərbaycan Dövlət Dəniz Akademiyasının IV kurs tələbələri Ramal Səmədzadə, Cəmilə Məmmədova, Fərhad Məmmədli və Məqsəd Xəlilzadə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-də təcrübə keçiblər.

Səh. 3

"BABƏK" TANKERİ İSTİSMARA QAYTARILIB

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Dəniz Nəqliyyat Donanmasına məxsus "Babək" gəmisi təmir olunub.

"Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunda aparılan tərsanə təmirindən sonra tanker dəniz sınaq yoxlanışından uğurla keçib.

Səh. 4

"AXDG" QSC-NİN HESABINA TƏLƏBƏLƏRƏ ƏLAVƏ TƏQAÜD VERİLƏCƏK

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin əsas strateji hədəflərindən biri də gənclərdən ibarət peşəkar kadrların hazırlanmasıdır. Bu məqsədlə "AXDG" QSC-nin daxili imkanları hesabına mütəmadi olaraq beynəlxalq səviyyədə tanınan təcrübəli gəmiçilərin təlimləri təşkil edilir, gənc əməkdaşların dənizçilik sahəsində ixtisaslaşan nüfuzlu şirkətlərdə təcrübə keçmələri üçün xüsusi layihələr həyata keçirilir.

Səh. 5

AXDG-NİN STRUKTURLARINDA "ÜMUMDÜNYA ƏMƏYİN MÜHAFİZƏSİ GÜNÜ"NƏ HƏSR OLUNMUŞ TƏDBİRLƏR KEÇİRİLİB

Beynəlxalq Əmək Təşkilatının (BƏT) müəyyənləşdirdiyi 28 aprel – "Ümumdünya Əməyin Mühafizəsi Günü" ilə əlaqədar "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin strukturlarında xüsusi tədbirlər keçirilib.

İstehsalat Xidmətləri İdarəsi, "Dənizçi Təmir Tikinti" MMC-də Ümumdünya Əməyin Mühafizəsi Gününə həsr olunmuş tədbirlərdə günün əhəmiyyət ilə bağlı əməkdaşlara geniş məlumat verilib.

Səh. 6

AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ YELKƏNÇİLƏRİMİZİN AVROPA ÇEMPİONATINDA İŞTİRAKINA DA DƏSTƏK VERİB

Yelkənli İdman Federasiyasının "Laser" sinfi üzrə milli komandası Yunanıstanın Patra şəhərində keçirilən yelkənli qayıqların "Laser4.7" sinfi üzrə Avropa Çempionatında iştirak edib.

Səh. 8

Nəqliyyat sektoru ilə bağlı qeyd etməliyəm ki, bu il biz Ələt Beynəlxalq Dəniz Ticarət Limanının birinci mərhələsinin açılışını qeyd edəcəyik. İndi Ələt limanı fəaliyyət göstərir. Bakı-Tbilisi-Qars dəmir yolunun istismara verilməsi məhz Ələt limanında olmuşdur. Ancaq yaxın gələcəkdə birinci faza tam başa çatacaq. Xəzər dənizinin 15 milyon ton yükaşırma qabiliyyəti olan ən böyük ticarət limanı Azərbaycanda – Ələtdə tikilir.

Giriş sözümdə qeyd etdiyim kimi, biz Azərbaycanı nəqliyyat qovşağına çeviririk. Açıq dənizlərə çıxışı olmayan ölkə Avrasiyanın nəqliyyat mərkəzlərinin birinə çevrilir. Bakı-Tbilisi-Qars artıq reallıqdır. Əminəm ki, hər il bu yolla daşınan yüklərin həcmi kəskin artacaq. Şimal-Cənub nəqliyyat dəhlizini də biz qonşu ölkələrlə birlikdə reallığa çeviririk. Qeyd etməliyəm ki, bütün nəqliyyat layihələrimizin uğurlu həyata keçirilməsinin səbəbi həm bizim iradəmiz, təşəbbüsümüzdür, eyni zamanda, qonşu ölkələrlə sıx münasibətlərimizdir. Çünki tranzit ölkə, əgər hansısa ölkə tranzit ölkə olmaq istəyirsə, o, mütləq qonşularla sıx əlaqədə olmalıdır. Qonşularsız heç bir ölkə tranzit ölkəyə çevrilə bilməz.

Biz indi Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması ilə ciddi məşğuluq. Onun çatışmayan hissəsi, o cümlədən Azərbaycan tərəfinin iştirakı ilə reallaşacaq. Şərq-Qərb nəqliyyat dəhlizi artıq reallıqdır. Biz indi mövcud olan dəmir yolu infrastrukturumuzu modernləşdirməliyik ki, sürət daha da artsın. Çünki Azərbaycan ərazisindən çox böyük yüklər daşınacaq.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

(Aprelin 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqindən)

AZƏRBAYCANIN ÖZÜ QƏDƏR ƏBƏDİ

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MİLLİ ELİTAMIZIN FORMALAŞMASINDA ROLU

Hər bir xalqda olduğu kimi, Azərbaycan xalqının da elitasının formalaşması uzun tarixi dövrü əhatə edir. Əsl ziyalıları ərsəyə gətirmək, müasir inkişafın tələblərinə cavab verən, xalqın dünyada tanınmasına ürəkdən çalışan milli elitanı qurub yaşatmaq heç də asan iş deyil. Bu yöndə Azərbaycanın bir sıra görkəmli şəxsiyyətləri tarix boyunca böyük əmək sərf ediblər. Müasir dövrümüzün dahisi ümummilli lider Heydər Əliyev bəzi ideoloji çətinliklərə baxmayaraq, hələ Sovet dövründən etibarən Azərbaycan xalqının önəmli ziyalılarının yetişdirilməsinə xüsusi diqqət yetirməyə başlamışdı. Ulu Öndər deyirdi: "Görkəmli şəxsiyyətlər xalqımızın zəkasını, elmini, mədəniyyətini, mənəviyyatını dünyaya nümayiş etdirirlər". Azərbaycan Milli Elmlər Akademiyası Elm Tarixi İnstitutunun direktoru, tarix elmləri doktoru Məryəm Seyidbəylinin "Ümummilli lider Heydər Əliyevin milli elitamızın formalaşmasında rolu" sərlövhəli məqaləsində Ulu Öndərin bu sahədəki əvəzolunmaz xidmətlərindən bəhs olunur:

Zəruri resurs potensialına malik olan siyasi elita dövlət idarəçiliyinin əsas vəsiləsidir, o, daxilən tezbirləşən sosial qrup olub siyasət sahəsində mühüm strateji qərarlar qəbul edir. Hakim elitanı bir qrup kimi xüsusi dəyərlər, onun üzvləri və sektorlarının münasibətlərini tənzimləyən normalar birləşdirir. Hakimiyyət və dövlət, ölkənin və dünyanın inkişafı, ictimai problemlər, xalq və onun dövlətin idarəçiliyində iştirakı barədə elitanın öz fikri və təsəvvürləri vardır.

Qeyd etmək lazımdır ki, elmi idarə etmək yüksək intellekt, bilik, bacarıq və erudisiya tələb edir. Bütün bu keyfiyyətləri özündə daşıyan görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycan SSR Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi olduğu dövrdə, XX əsrin 70-80-ci illərində Elmlər Akademiyasının alimlərinin fəaliyyəti dünya elmi ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilib. İqtisadiyyat və elm sahəsində nailiyyətlərinə görə Azərbaycan Elmlər Akademiyası "Xalqlar Dostluğu" ordeninə layiq görülmüşdü. Bu yüksək mükafatı 1975-ci ildə Ümummilli Lider şəxsən özü təqdim edib. Onun Azərbaycan elminə qayğısı sayəsində Elmlər Akademiyasının elmi elitası formalaşıb və dünya elmində yerini tapıb.

Ulu Öndər xalqın elmi-intellektual potensialının möhkəmləndirilməsinə daim diqqət yetirirdi. Tam əminliklə demək olar ki, 1969-cu ildə respublikada hakimiyyətə gəldikdən sonra müdrik siyasi rəhbər Heydər Əliyev Azərbaycanda güclü ziyalı təbəqənin, yeni milli elitanın qurulması məsələsinə xüsusi diqqət yetirib.

Sovet dövründə Azərbaycanın sürətli inkişafı bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır. Bunu təsdiqləmək üçün onun rəhbərliyi dövründə ölkənin həyatının bütün sahələrdə inkişafını əyani əks etdirən statistik məlumatlarla tanış olmaq kifayətdir.

1970-1980-ci illərdə Heydər Əliyevin şəxsi təşəbbüsü ilə hər il azərbaycanlı gənclər ölkənin nüfuzlu ali məktəblərinə təhsil almaq üçün göndərilirdi. Ulu Öndər azərbaycanlı gənclərin təhsil almaları üçün əlavə yerlər alır və sovet dövründə Rusiyanın ali məktəblərində təhsil alan gənclərimizin sayı artırdı. Əgər 1965-1966-cı tədris ilində təhsil almaq üçün 60 gənc göndərilmişdisə, 1976-cı ildə bu göstərici təxminən 11 dəfə artaraq 653-ə çatmışdı. Bu sahədə artım sonrakı illərdə də davam edib. Əgər 1970-ci ilədək təhsil almaq üçün respublikadan kənara göndərilənlər arasında azərbaycanlılar yalnız 40 faiz təşkil edirdisə, 1976-cı ildə Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində bu rəqəm 85 faizə, 1977-ci ildə 92 faizə, 1980-ci ilin əvvəlində 97,6 faizə çatmışdı.

Ümummilli Lider Azərbaycanı ölkə elminin mərkəzlərindən birinə çevirmək məqsədilə elmi-tədqiqat institutlarının, elmi işçilərin sayının artırılmasına çalışır və onlara qayğı göstərirdi. Bu sahədə onun fəaliyyəti kifayət qədər uğurlu idi. Əgər 1969-cu ildə Azərbaycanda fəaliyyət göstərən 89 elmi-tədqiqat institutunda, digər layihə müəssisələri və problem laboratoriyalarında 12.850 elmi işçi, o cümlədən 55 akademik və müxbir üzv, 329 elmlər doktoru və üç min elmlər namizədi var idisə, 1978-ci ildə elmi-tədqiqat, layihə və sahə institutlarının sayı 118-ə, elmi işçilərin sayı 21407 nəfərə, akademik və müxbir üzvlər 100 nəfərə, elmlər doktorları 853, elmlər namizədlərinin sayı 7594 nəfərə çatmışdı.

Görkəmli dövlət xadimi Heydər Əliyevin səyləri nəticəsində Azərbaycanda elmi işçilərin sayı artır, alimlərin hazırlanmasına xüsusi diqqət verilirdi. 1970–1980-ci illərdə respublikamızda 258 elmlər doktoru, 2677 elmlər namizədi hazırlanmışdı. Respublika Elmlər Akademiyasının 56 həqiqi üzvü və 71 müxbir üzvü var idi. 123 elmi idarə və 17 ali məktəbin kafedralarında 22 min elmi əməkdaş, o cümlədən 900-dən çox elmlər doktoru və səkkiz mindən çox elmlər namizədi çalışırdı.

Statistik məlumatlardan göründüyü kimi, məhz ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə respublikada nəhəng quruculuq işləri geniş vüsət almışdı. Həmin illərdə təhsil almış gənclər ölkədə yaradıcılıq işlərində fəal və yaxından iştirak etmişlər. Gənclərin SSRİ-nin müxtəlif ali tədris müəssisələrində təhsil alması nəticəsində respublika yüksək ixtisaslı mütəxəssislərlə təmin olunmuş və sənaye, elm və mədəniyyətin müxtəlif sahələrində qabaqcıl mövqeyə çıxmışdır.

Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə ulu öndər Heydər Əliyev məsələni çox qəti şəkildə qoyurdu. O, dəfələrlə vurğulayırdı ki, Moskva Dövlət Universitetində təhsil alan ziyalılarımızın sayını durmadan çoxaltmalıyıq, çünki burada təhsilin səviyyəsi daha yüksəkdir. Digər tərəfdən, burada elə ixtisaslar var ki, Bakı Dövlət Universitetində bu ixtisaslar yoxdur.

Həmin gənclər bu gün Azərbaycan elitasını təşkil edirlər.

1980-ci illərin sonunda Azərbaycan ziyalılarının düşüncəsində milli ideya anlayışı formalaşırdı. Bu dövrü Azərbaycan xalqının siyasi dirçəliş dövrü adlandırmaq olar. Çünki 1969-cu ildə hakimiyyət sükanını qəbul edən Ulu Öndər ictimai şüurun, milli mənlik şüurunun formalaşmasının yeni mərhələsinin əsasını qoymuşdu. 1987-ci ilin sonu 1988-ci ilin əvvəllərində xalq hərəkatının genişlənməsi və 20 Yanvar hadisəsindən sonra xalqın düşüncəsində müstəqil dövlət qurmaq ideyası dərin kök salmağa başlamışdı. Bu ideyanın ətrafında Moskvada yaşayan Azərbaycan elitası, mərkəzində isə Heydər Əliyev dururdu.

SSRİ-nin dağılmasından sonra elitanın malik olduğu mürəkkəb strukturu dezinteqrasiya dövrünü keçirib. Perspektivli alimlərin bir çoxu elmdən uzaqlaşaraq biznes sahəsini seçib, digərləri isə xaricə mühacirət ediblər. Bu kontekstdə, demək olar ki, yeni siyasi elita sovet elitası əsasında deyil, postsovet elita qruplarının bazası əsasında formalaşıb, Sovet elitasının "ruhu" yeni elitanın məzmun elementi kimi uzun müddət davam edib.

Ümummilli lider Heydər Əliyevin rəhbərlik etdiyi dövr minilliklər boyu davam edən dövlətçilik tariximizin şanlı səhifəsidir. Onun uzaqgörən siyasəti nəticəsində Azərbaycan elmi, təhsili, mədəniyyəti, iqtisadiyyatı sürətlə inkişaf edib, xalqın mənəvi yaddaşı canlanıb. Beləliklə də, bu dövr tariximizə Azərbaycanda intellektual potensialın güclənməsi dövrü kimi daxil olub.

Böyük rəhbər Heydər Əliyevin siyasi iradəsi sayəsində peşəkar kadr kimi formalaşan gənclərin bir hissəsi vətənə qayıtmayaraq postsovet respublikalarında Azərbaycanın intellektual bazasını təşkil edib. Bu gün onların çoxu Rusiya Federasiyasının və Müstəqil Dövlətlər Birliyinə daxil olan digər respublikaların elmi və yaradıcı elitasında yer alır. Bizim qənaətimizə görə, bugünkü milli elitamızın çoxsaylı və perspektiv hissəsini sovet dövründə formalaşmış və ixtisaslaşmış ziyalılarımız təşkil edirlər.

Ötən əsrin 70-ci illərində Heydər Əliyevin təşəbbüsü ilə SSRİ-nin qabaqcıl təhsil müəssisələrinə göndərilən azərbaycanlı tələbələrin müəyyən bir qismi bu gün müstəqil Azərbaycan Respublikasının siyasi-ictimai həyatında mühüm rol oynayır. Azərbaycanda yaşayan və fəaliyyət göstərən bu ziyalılarımız mədəniyyət və incəsənət, elm, təhsil və bir sıra digər sahələrdə mühüm nailiyyətlər əldə ediblər. Bu nailiyyətlərin memarı ümummilli lider Heydər Əliyevdir.

(Davamı 2-ci səhifədə)

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MİLLİ ELİTAMIZIN FORMALAŞMASINDA ROLU

(Əvvəli 1-ci səhifədə)

Azərbaycan müstəqillik əldə etdikdən sonra mürəkkəb siyasi-ictimai proseslərlə üz-üzə qaldı. Daxili siyasi-iqtisadi problemlər, Qarabağda gedən müharibə ölkənin müstəqillik taleyini sual altına alırdı. Belə bir şəraitdə Azərbaycanın bir qrup ziyalısı Naxçıvanda fəaliyyətini davam etdirən Heydər Əliyevə müraciət ünvanladı. Ziya Bünyadov, Fərəməz Maqsudov, Ömər Eldarov, Kərim Kərimov və başqalarının imzaladıqları müraciətdə Azərbaycanın düşdüyü çətin vəziyyətdən qurtulması üçün yeganə çıxış yolunun Heydər Əliyevin hakimiyyətə qayıdışı olduğu vurğulanırdı. Bu müraciətdə ilk dəfə müstəqil Azərbaycanın ziyalı elitası xalqımızın adından çıxış edərək təkidlə Ulu Öndəri yenidən Azərbaycanın siyasi arenasına qayıtmağa çağırırdı: "Hörmətli Heydər bəy! Siz mövcud vəziyyətdə bu çətin, məsuliyyətli işi öz üzərinizə götürə biləcək yeganə insansınız. İllər ərzində əldə etdiyiniz, dövlət quruculuğu sahəsindəki təcrübənizə əsaslanaraq Azərbaycanda böyük, güclü və qısa müddətdə geniş xalq kütlələrini əhatə edə biləcək nüfuzlu partiya qura bilərsiniz. Buna görə də, Azərbaycanın, demək olar ki, bütün regionlarında keçirilmiş ictimai sorğunun nəticələrinə, vətəndaşların bizim təşkilat komitəsinə ünvanladıqları şifahi və yazılı təkliflərə əsaslanaraq belə qənaətə gəlmişik ki, bu gün yaratmaq istədiyimiz Yeni Azərbaycan Partiyasına rəhbərlik edə biləcək yeganə mütləq lidersiniz. Siz bütün çətinliklərə baxmayaraq, öz şəxsi nüfuzunuz və uzaqgörən diplomatik təcrübəniz sayəsində bu gün siyasi, iqtisadi, hərbi və mənəvi blokadada olan Naxçıvan Muxtar Respublikasını qoruyur və idarə edirsiniz. Biz istəyirik ki, Siz bu işləri bütün Azərbaycan üçün edəsiniz.

Heydər bəy! Bizim bu müraciətimizə böyük sevinc hissi ilə minlərlə Azərbaycan vətəndaşı qoşulmağa hazırdır. Hələlik isə ziyalı qrup adından ilk addım atırıq. Biz həm öz adımızdan, həm də respublikanın çoxminlik əhalisi adından Sizdən xahiş edirik ki, yeni yaradılan Yeni Azərbaycan Partiyasına rəhbərlik edəsiniz. Azərbaycan Sizin sözünüzü və son qərarınızı gözləyir".

Ümummilli lider cavab məktubunda ziyalıların bu narahatlığının əsaslı olduğunu vurğulayaraq Azərbaycanın yalnız peşəkar kadrlar tərəfindən idarə olunmasının böyük əhəmiyyət daşıdığını qeyd edirdi: "Xalqın çətin vəziyyətdə olduğunu görürəm, respublika rəhbərləri xalqa, dövlətə xəyanət edir. Ziyalılarımız - xalqın layiqli oğulları ayağa qalxsalar da, onları əzirlər. Mən belə qənaətə gəlirəm ki, bu ağır şəraitdə mənim səsim onlara dəstək ola bilər və beləliklə, xalqımızı, mənəviyyatımızı qoruya bilərik.

Azərbaycanın bu günü, gələcək taleyinə görə narahat olan insanlar mənə müraciət etmişlər. Onlardan bəziləri yanıma gəlmiş, bəziləri şifahi, 91 nəfər ziyalımız isə heç bir təzyiqdən, heç nədən çəkinməyərək mənə yazılı şəkildə müraciət ünvanlamışlar".

Belə bir şəraitdə bütün həyatını Azərbaycanın müstəqil dövlət quruculuğuna həsr etmiş Heydər Əliyevin hakimiyyətə qayıdışı ölkənin yeni inkişaf dövrünün əsasını qoydu. Böyük xilaskarın müdrik siyasəti nəticəsində ölkədə taleyüklü dəyişikliklərin əsası qoyuldu, Azərbaycan xaos və böhrandan qurtuldu.

Hər bir xalqın özünəməxsus milli ideologiyası vardır və müstəqil Azərbaycan Respublikasının milli ideologiyası – azərbaycançılıq ideologiyasıdır. Bu gün Azərbaycan elitası müdrik siyasi rəhbər Heydər Əliyev tərəfindən əsası qoyulmuş azərbaycançılıq ideologiyası ətrafında formalaşır. Məhz görkəmli ictimai-siyasi xadim Heydər Əliyev bütün ictimaiyyəti birləşdirmək məqsədini daşıyan azərbaycançılıq ideologiyasının nəzəri əsaslarının inkişafını təşviq edib.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu gün Heydər Əliyev siyasətini uğurla davam etdirərək milli elitamızın inkişafına dövlət səviyyəsində diqqət və qayğısını əsirgəmir.

Dövlətimizin başçısı həyata keçirdiyi tədbirlərlə, gördüyü işlərlə xalqın etimadını qazanıb, dövlətin idarə olunmasının bütün məsuliyyətini öz üzərində daşımağın layiqliyini sübut edib və ulu öndər Heydər Əliyevin etimadını doğruldub. Bu gün əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş, ciddi elmi prinsiplərə əsaslanan çoxşaxəli inkişaf strategiyası inamla davam etdirilir, müstəqil Azərbaycan Respublikası bütün əhəmiyyətli sahələrdə böyük uğurlara imza atır. Ölkə Prezidentinin yürütdüyü məqsədyönlü siyasət nəticəsində Azərbaycanın həyatında yeni bir intibah dövrü başlanıb, siyasi, iqtisadi və hərbi qüdrətimiz artıb, ölkəmiz Cənubi Qafqaz regionunun lider dövlətinə çevrilib.

Hələ 2003-cü ildə ilk dəfə dövlət başçısı olmaq etimadını qazanan İlham Əliyev andiçmə mərasimdə demişdi: "Mən yüksək kürsüdən Heydər Əliyevə müraciət edərək söz verirəm: Əsərin olan müasir Azərbaycanı çiçəkləndirəcəyik, Sizin yolunuzla yeni qələbələrə doğru gedəcəyik". Bu gün İlham Əliyev proqressiv islahatlar reallaşdırmaqla hər bir azərbaycanlının layiqli Prezidenti olduğunu sübuta yetirir.

PREZİDENT İLHAM ƏLİYEV YENİ İNŞA EDİLMİŞ "TUFAN" TİPLİ SƏRHƏD GÖZƏTÇİ GƏMİSİ İLƏ TANIŞ OLUB

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev aprelin 30-da Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin Gəmi İnşası və Təmiri Mərkəzində yeni inşa edilmiş "Tufan" tipli sərhəd gözətçi gəmisi ilə tanış olub.



AZƏRTAC xəbər verir ki, Dövlət Sərhəd Xidmətinin rəisi Elçin Quliyev Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyevə raport verdi.

Prezident, Ali Baş Komandan İlham Əliyev Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin sərhəd gözətçi gəmilərinin tikintisini əks etdirən filmə baxdı, gəmilərin texniki göstəriciləri ilə tanış oldu.

Elçin Quliyevin məruzəsində qeyd olundu ki, Azərbaycan Prezidentinin daimi diqqət və qayğısı sayəsində son illər ərzində Dövlət Sərhəd Xidmətində dinamik inkişaf təmin olunub, ən müasir silah və texnika dövlət sərhədinin mühafizəsinə cəlb edilib, döyüş tətbiqi imkanlarının ciddi genişlənməsinə nail olunub.

Sonra Dövlət Sərhəd Xidmətinin yeni xüsusi təyinatlı döyüş texnikasına, raket komplekslərinə, zərbəendirici pilotsuz uçan aparatlarına, silahlara, nəqliyyat vasitələri üzərində texniki-nəzarət stansiyalarına, idarəetmə və digər təyinatlı avadanlıqlara baxış keçirildi.

İki il əvvəl Prezident İlham Əliyevin Ali Baş Komandanlığı altında Azərbaycanın hərbi qüdrətinin möhtəşəmliyinin ifadəsi olan Aprel döyüşlərində düşmənin döyüş mövqelərinin, dislokasiya yerlərinin, komanda-dayaq məntəqələrinin, qərargahlarının bu döyüş imkanlarının uğurlu tətbiqi nəticəsində darmadağın edilməsinin görüntüləri nümayiş etdirildi.

Azərbaycan Sərhəd Mühafizəsinin xidməti-döyüş fəaliyyətinin formalaşdırılması və inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı sayəsində isə bu xidmət keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Prezident İlham Əliyevin 2005-ci il fevralın 18-də imzaladığı Fərmanla sərhəd gözətçi gəmilər dəstəsinin əsasında Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin təsis edilməsi nəticəsində Xəzər dənizində dövlət maraqlarımızın yüksək səviyyədə qorunması və dəniz sərhədlərinin etibarlı mühafizəsi üçün daha geniş imkanlar yaranıb. Dövlət Sərhəd Xidməti dənizdə sərhəd mühafizəsinin təşkili üzrə beynəlxalq təcrübədən istifadə edərək Xəzərdə səmərəli sərhəd mühafizə sisteminin formalaşdırılması istiqamətində mühüm işlər görüb. Sərhədçi dənizçilərin peşəkarlıq səviyyəsinin artırılması xüsusi diqqət mərkəzində saxlanılır. Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin şəxsi heyətinin cəlb olunduğu müxtəlif mövzulu döyüş və taktiki təlimlərin hər il keçirilməsi döyüş hazırlığının yüksəldilməsində, ekstremal şəraitdə peşə vərdişlərinin möhkəmləndirilməsində böyük rol oynayır. 2017-ci il avqust ayının 12-14-də "Xəzər dənizinin Azərbaycana mənsub bölməsində qaçaqmalçılıq, qeyri-qanuni ticarət, mütəşəkkil cinayətkarlıq və enerji infrastrukturuna qarşı terror-təxribat aktlarının qarşısının alınması zamanı Dövlət Sərhəd Xidmətinin bölmələri tərəfindən axtarış əməliyyatları keçirməklə terrorçu qrupların zərərsizləşdirilməsi və dəniz təhlükəsizliyinin təmin olunması" mövzusunda döyüş atışlı taktiki sərhəd təlimləri keçirilib, gəmi silahlarının gecə və gündüz şəraitində döyüş atışları zamanı bütün təlim tapşırıqları yüksək səviyyədə icra olunub, şəxsi heyət böyük məharət nümayiş etdirib.

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev yeni inşa olunan "Tufan" tipli sərhəd gözətçi gəmisi ilə tanış oldu.

Yeni gəmi mükəmməl naviqasiya və rabitə-radiotexnika avadanlığı, müasir silahlar, o cümlədən raketlər və raket silahlarına qarşı mübarizə kompleksi, gecə-gündüz görmə müşahidə sistemləri və hidroakustik qurğu ilə təchiz edilib. Xəzər dənizində ağır üzmə şəraitində xidməti vəzifələrini yerinə yetirə bilən, itisürətli qayıqla təchiz edilmiş və 62 metr uzunluğunda olan sərhəd gözətçi gəmisinin dəniz şəraitində göyərtəsinə helikopterin enməsi mümkündür. Bildirildi ki, yeni gəmidən dövlət sərhədlərinin mühafizəsi, sərhəd sularında rejimin təmin olunması, karbohidrogen ehtiyatlarının hasilatı və nəqli infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi istiqamətində xidməti vəzifələrin icrası zamanı istifadə ediləcək.

"BÖYÜK İPƏK YOLU - İNKİŞAFIN YENİ MƏRHƏLƏLƏRİNƏ DOĞRU"

TÜRKMƏNBAŞIDA BEYNƏLXALQ DƏNİZ LİMANI AÇILIB

Mayın 2-də Türkmənbaşı şəhərində yeni Beynəlxalq Dəniz Limanının açılışı olub.

Limanın açılış mərasimində və "Böyük İpək yolu - inkişafın yeni mərhələlərinə doğru" Beynəlxalq Forumunda Azərbaycanı nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyev, "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin baş direktoru Taleh Ziyadov, Azərbaycanın Türkmənistandakı səfiri Həsən Zeynalov təmsil edirlər.

Sahəsi təxminən 152 hektar olan yeni limana bərə, sərnişin və yük terminalları daxildir. Eyni vaxtda 17 gəmiyə xidmət edə biləcək körpülərin uzunluğu 1800 metrdən çoxdur. Liman 300 min sərnişinə və 75 min yük maşınına, ildə 400 min konteynerə xidmət edə bilər. Yeni limanın ümumi buraxılış gücü neft məhsulları nəzərə alınmamaqla 17 milyon tondur. Limanda "Balkan" gəmiqayırma və gəmi təmiri zavodu tikilib. İldə 12 min ton polad emal etmək imkanı olan bu müəssisə 4 gəmi tikintisi və 20 gəminin təmiri üçün nəzərdə tutulur.

Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov "Böyük İpək yolu - inkişafın yeni mərhələlərinə doğru" Beynəlxalq Forumunda çıxışı zamanı vurğulayıb ki, dəniz limanı dəniz yolu ilə daşımaların müasir sisteminin formalaşmasının mühüm elementinə çevrilməli, Qara dəniz, Avropa, Yaxın Şərq, Cənubi Asiya və Asiya-Sakit Okean regionu ölkələrinə çıxış üçün maksimim əlverişli şərait yaratmalı, böyük yük axınlarının daşınma məsafəsini və buna sərf edilən vaxtı xeyli azaltmalıdır.

"Türkmənistan Avropa, Asiya-Sakit Okean və Cənubi Asiya iqtisadi sistemlərinin qarşılıqlı əlaqəsinin transkontinental iqtisadi körpüsü olmalıdır. Buna görə də ölkənin dünya nəqliyyat sisteminə davamlı inteqrasiyası, Şərq-Qərb və Şimal-Cənub istiqamətlərində marşrut və qovşaqları əlaqələndirən əsas magistral xətləri üzrə milli infrastrukturun genişləndirilməsi ilə yanaşı, həmçinin nəqliyyat marşrutlarının daha böyük effektivliyinin təmin edilməsi, daxili, tranzit və ixrac-idxal daşımalarında son məhsulun dəyərində nəqliyyat tərkib hissəsinin payının azaldılması üzrə tədbirlər həyata keçirilməsi nəzərdə tutulur.

Bu strategiyanın həyata keçirilməsinin gözlənilən nəticələrindən biri intermodal daşımaların nəqliyyat-logistika mərkəzlərinin yaradılmasıdır.

Yeni nəqliyyat dəhlizləri bu sahədə bazar xidmətlərini genişləndirməyə imkan verir. Bu da öz növbəsində fəal marketinq xarici iqtisadi siyasətin həyata keçirilməsini, beynəlxalq nəqliyyat dəhlizlərinin iştirakçıları tərəfindən tariflərin və tarif preferensiyalarının çevik sisteminin optimallaşdırılmasını tələb edir", - deyə Türkmənistan Prezidenti bildirib.

Tədbirdə çıxış edən Azərbaycanın nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə qeyd edib ki, Böyük İpək yolu tarixən dostluq, tərəfdaşlıq, mədəni dəyərlərin mübadiləsi, iqtisadi münasibətlər və ölkələrimizin inkişafı üçün əsas rolunu oynayıb. O deyib: "Şərq ilə Qərbi birləşdirən əsas marşrutlardan biri olan Azərbaycan bu gün Böyük İpək yolu dəyərlərinə sadiqliyini saxlamaqdadır. Müstəqil Azərbaycanın hərtərəfli inkişafı region ölkələri ilə əməkdaşlığın müxtəlif sahələrində - iqtisadiyyat, ticarət, nəqliyyat, mədəniyyət sahələrində münasibətləri inkişaf etdirməyə imkan yaradır.

Türkmənbaşıda bu gün açılan limana Türkmənistanın Böyük İpək yolunun bərpasına töhfəsi kimi baxmaq olar.

Nəqliyyat layihələri həmişə inkişafın hərəkətverici qüvvələri olub. Asiyadan Avropaya çox qısa Bakı-Tbilisi-Qars dəmir yolu marşrutu, Fars və Fin körfəzləri sahillərini birləşdirən "Şimal-Cənub" layihələri beynəlxalq əməkdaşlıq üçün yeni imkanlar yaradır.

Bildiyiniz kimi, Xəzərin Azərbaycan sahilində Beynəlxalq Dəniz Ticarəti Limanının tikintisi aparılır və azad iqtisadi fəaliyyət üçün mərkəz yaradılır. Bu layihələr bir-birini tamamlayır, dünya nəqliyyat landşaftını dəyişir, Asiya və Avropanın qovuşuğunda yerləşən coğrafi mövqeyimizdən daha səmərəli istifadə etməyə imkan verir. Bu sahədə əməkdaşlıq ölkələrimizin inkişafına xidmət edəcək".

İlahə Əhmədova

BİR ÖMRÜN İŞIĞI

Zərifə xanım Əliyeva haqqında söhbət açılanda yada ilk olaraq işıq düşür. Təkcə ona görə yox ki, Zərifə xanım həkim kimi gözlərə nur verirdi. Onun yaşadığı ömrün özü bir işıq mücəssəməsidir. Bu işıqdan hamıya pay çatırdı: ailəsinə, övladlarına, əhatəsində olanlara, gözünün nurunu itirmiş insanlara...

Azərbaycan tibb elmində silinməz izlər qoymuş, səhiyyəmizə böyük töhfələr vermiş akademik Zərifə xanım Əliyevanı xatırlayanda həm də göz önündə mənəvi kamilliyinin ən uca zirvəsində dayanan görkəmli elm fədaisinin işıqlı çöhrəsi canlanır. Eyni zamanda, onun simasında nəcib Azərbaycan qadını, vəfalı ömür-gün yoldaşı, fədakar ana obrazı görürük. Yüksək intellekt və mədəniyyət, dərin bilik, insanpərvərlik, Vətənə məhəbbət və xeyirxahlıq kimi keyfiyyətlər Zərifə xanımın portretini tamamlayan əsas cizgilərdir. Hər dəfə Vaqif Mustafayevin "Əsl məhəbbət haqqında" filminə baxanda qəlbimizdə kövrək hisslər baş qaldırır. Ümummilli lider Heydər Əliyevin öz ömür-gün yoldaşına bəslədiyi müqəddəs məhəbbət duyğuları insanı riqqətə gətirəcək qədər təsirlidir. Görünür, ayrılıqlar kimi, vüsallar da tale yazısıdır. Bir-birinə məhəbbətlə dolu iki ürək on səkkiz ildən sonra Fəxri xiyabanda əbədi qovuşdu.

Zərifə xanım Ümummilli Liderlə çiyin-çiyinə addımlayır, qayğısına qalır, çətin günlərdə ona arxa-dayaq olurdu. Bu yükü kövrək çiyinlərində böyük mətanət və fədakarlıqla daşıyırdı. Eyni zamanda, övladlarını vətənin layiqli övladları kimi, öz nəslinin yüksək mənəvi dəyərlərinin varisi kimi yetişdirirdi. Üstəgəl gərgin iş və elmi fəaliyyət...

Sıravi həkimlikdən akademikliyə qədər yüksəlmiş Zərifə xanım oftalmologiya elminin inkişafına dəyərli töhfələr verib, bu sahə üzrə yüksək ixtisaslı kadrlar yetişdirilməsinə böyük əmək sərf edib. Akademik Zərifə xanım Əliyevanın zəngin irsi, tibbin müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifələridir.

Bütün bu uğurların kökündə isə akademik Zərifə Əliyevanın aldığı həyat dərsi dayanırdı. Doğulub boya-başa çatdığı mühitin onun taleyində həlledici rolu olub. Zərifə xanım 1923-cü il aprelin 28-də Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Şahtaxtı kəndində, dövrünün görkəmli dövlət xadimi, mahir səhiyyə təşkilatçısı Əziz Məmmədkərim oğlu Əliyevin ailəsində dünyaya göz açmışdı. Atası Əziz Əliyev rektor, nazir, Mərkəzi Komitənin katibi, Baş nazirin müavini kimi yüksək vəzifələrdə çalışmış, dərin intellekti və təşkilatçılıq bacarığı ilə böyük nüfuz qazanmışdı. Onun enişli-yoxuşlu həyatının bütün mərhələləri əslində övladları üçün həyat məktəbi idi. Belə bir ailədə böyüyən Zərifə xanım təbii ki, səmimiyyəti, insanlara sevgisi ilə başqalarından seçilirdi. Bu nəslə və ailəyə məxsus ziyalılıq, əməksevərlik, doğma ocağa, xalqa və vətənə bağlılıq kimi nəcib xüsusiyyətlər onun həyatında öz təcəssümünü tapmışdı. Atasının yolunu davam etdirməyi, gələcək taleyini tibb elminə həsr etməyi qarşısına məqsəd qoyan Zərifə xanım 1942-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olur və 1947-ci ildə həmin institutu əla qiymətlərlə bitirir. Oftalmologiya peşəsinə yiyələnmək arzusu isə gənc mütəxəssisi Moskva şəhərinə aparıb çıxarır və o, Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda ikiillik ixtisasartırma kursu keçərək həkim-oftalmoloq ixtisasına yiyələnir.

Zərifə xanım, ilk növbədə, həkim idi, bu peşəni çox uca tuturdu. Həkimi günəşə bənzədərək deyirdi: "Həkim insanlara günəş qədər lazımdır".

Həmin dövrdə Azərbaycanda bir sıra göz xəstəlikləri geniş yayılmışdı, traxoma deyilən dəhşətli bəla tüğyan edirdi. İnsanları bu bəladan xilas etmək, eləcə də digər aktual problem olan gözün peşə xəstəliklərinə dair fundamental tədqiqatlar aparmaq, onların effektli müalicə metodlarını və profilaktik tədbirləri işləyib hazırlamaq lazım idi. Zərifə xanım Əliyeva məhz belə bir vaxtda Moskvadan vətənə qayıdır və Azərbaycan Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi vəzifəsində çalışmağa başlayır. Gənc tədqiqatçının elmi araşdırmalarının mövzusunu həyat özü müəyyənləşdirir və o, elmi istiqamətlərinin ilkin mərhələsini traxomanın müalicəsinə həsr edir. Traxoma xəstəliyinin daha geniş yayıldığı rayonlara gedir, xəstəlik ocaqlarını aşkarlayır, göz həkimlərinə mühazirələr oxuyur, əhali arasında söhbətlər aparırdı. Çox keçmədən Zərifə xanım traxoma xəstəliyinin başlanğıc dövründə sintomisinin tətbiqində uğurlu nəticələrə nail oldu. Tədqiqatlarının yekunu olaraq 1959-cu ildə "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyasını uğurla müdafiə etdi. Onun təklif etdiyi müalicə metodu tezliklə geniş təcrübi tətbiqini tapdı və nəticədə respublikada traxoma bir xəstəlik kimi ləğv olundu.

Görkəmli alim sonra fəaliyyətini Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun oftalmologiya kafedrasında davam etdirir. Burada dosent, professor, kafedra müdiri vəzifələrində işləyir, oftalmologiyanın aktual problemlərinə həsr edilmiş çoxprofilli tədqiqatlar aparır. Həmin dövrdə Zərifə xanım oftalmologiyanın aktual problemlərinə xüsusi diqqət yetirirdi. Bu problemlər arasında diaqnostika, qlaukomanın və görmə orqanının iltihabının müalicəsi xüsusi yer tutur. Onun diqqətini oftalmologiyanın elmi cəhətdən az araşdırılmış sahəsi - görmə orqanının peşə patologiyası cəlb edir. Bu problemin aktuallığı yalnız kimya və elektronika sənayesinin geniş inkişafı ilə deyil, həm də bir çox yeni kimyəvi birləşmələrin görmə orqanına təsirinin elmi şəkildə tədqiqi ilə əlaqədar idi. Zərifə xanım bu sahənin ilk tədqiqatçısı olub. Görkəmli alim dünyada ilk olaraq görmə orqanının peşə patologiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaradıb və elm aləmində yeni bir istiqamətin - peşə oftalmologiyasının əsasını qoyub. Bakı Məişət Kondisionerləri Zavodunda təşkil edilmiş bu laboratoriyada elmi-tədqiqat işləri ilə yanaşı, həmin zavodun və digər iri sənaye müəssisələrinin işçilərinə müalicə köməyi də göstərilib. Zərifə xanım Əliyeva bu sahəyə dair araşdırmalarının ilkin nəticələrini ümumiləşdirərək Moskvada, M.Helmholts adına Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda "Azərbaycanın kimya sənayesi işçilərində görmə orqanının vəziyyəti" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 1977-ci ildə Zərifə Əliyevaya tibb elmləri doktoru alimlik dərəcəsi verilib.

Zərifə xanım uzun illər respublikanın ondan artıq iri sənaye müəssisəsində genişmiqyaslı elmi-tədqiqat işləri aparıb. Bu tədqiqatların nəticələri "Şin istehsalında gözün peşə patologiyası", "Xroniki yod intoksikasiyası zamanı oftalmologiya" və "Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası" kimi dəyərli monoqrafiyalarında öz əksini tapıb. 1981-ci ildə görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi-tədqiqat işlərinin uğurlu nəticələrinə və oftalmologiyanın inkişafına verdiyi töhfələrə görə akademik Zərifə Əliyevaya keçmiş ittifaqın oftalmologiya sahəsində ən mötəbər mükafatı olan SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafat verilmişdi. O, həmin mükafata layiq görülən ilk qadın alim idi.

Məşhur oftalmoloq M.Krasnov Zərifə xanımın görmə orqanının peşə patologiyasının öyrənilməsinə həsr etdiyi tədqiqatları yüksək qiymətləndirərək qeyd edib ki, Zərifə Əziz qızı yaşasaydı, oftalmologiya elmi sahəsində yeni kamil bir məktəbə rəhbərlik edə bilərdi.

Zərifə xanım bir sıra dərs vəsaiti və monoqrafiyaların da müəllifi olub. Onların arasında "Kəskin virus konyuktivitləri", "Keratitlər, gözün damarlı traktının, torlu qişanın, görmə sinirinin xəstəlikləri, kataraktalar", "Qlaukoma və gözün hipertenziyası", "Görmə orqanının zədələnməsi", "Göz yaşı axmasının fiziologiya və histologiyası", "Şəkərli diabetdə göz xəstəlikləri", "Gözün mikrocərrahiyyəsi", "Göz bəbəyi haşiyəsinin adaptasiya və müdafiə funksiyası" əsərləri xüsusi yer tutur. Alimin göz yaşı xəstəliklərinə həsr etdiyi "Yaşaparıcı yolların fiziologiyası", "Yaşaparıcı yolların cərrahi müalicəsi", "Göz yaşı yollarının qoruyucu cərrahiyyə üsulları" və digər əsərləri tibb ictimaiyyəti tərəfindən böyük maraqla qarşılanmışdı. Bunlarla yanaşı, Zərifə xanım Əliyeva nadir sahə olan iridodiaqnostika və iridoterapiya problemləri ilə məşğul olub, bu sahəyə dair iki monoqrafiya hazırlayıb. Dünya miqyasında iridodiaqnostikaya aid kitabları da ilk dəfə Zərifə xanım Əliyeva yazıb.

Görkəmli oftalmoloqun tibbi etika və deontologiyaya dair baxışları onun "Həkimin əxlaqi tərbiyəsi, deontologiya, tibbi etika və əxlaq məsələləri" əsərində ətraflı əks olunub. Bu əsərdə həkim və xəstənin qarşılıqlı münasibətlərinin həssas məqamları, müalicə həkiminin diaqnostika və müalicə prosesində aparıcı rolu, tibb işçilərinin yalnız təhsilinin deyil, həm də tərbiyəsinin vacibliyi ön planda verilib.

Təsadüfi deyildi ki, Zərifə xanımın birbaşa rəhbərliyi altında gənc elmi işçilərin və həkim-oftalmoloqların böyük bir nəsli yetişmiş, o, özündən sonra dəyərli məktəb qoymuşdu.

Dünya oftalmologiya elminin tanınmış simaları Zərifə xanım Əliyeva haqqında həmişə yüksək fikirdə olublar. Akademik A.Nesterov deyirdi: "Zərifə Əliyeva böyük professional idi. Mən onu öz sahəsinin məşhur alimi hesab edirəm". Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunun direktoru K.Trutneva Zərifə xanımın elmi-tədqiqatlarının səciyyəvi xüsusiyyətlərini yüksək dəyərləndirərək yazırdı: "Bu cür tədqiqatlar həcminə və vacibliyinə görə seçilsə də, çox zəhmət tələb etsə də, sosial-iqtisadi baxımdan əvəzsizdir. Bu nadir tədqiqatlar nəticəsində zərərli istehsal sahələrində çalışanların iş şəraitini yaxşılaşdırmaq üçün metodiki tövsiyələr işlənib hazırlanmış, istehsalata tətbiq edilmişdir. Zərifə xanımın apardığı tədqiqatların əsas mahiyyəti də məhz bundan ibarətdir". Tibb elmləri doktoru, professor Z.Skripniçenko alimin elmi fəaliyyətinə belə qiymət verirdi: "Zərifə xanımın elmi maraq dairəsi çox geniş idi. O, bir ümumi dəftərə yeni kitab üçün nəzərdə tutduğumuz fikirləri qeyd etmişdi. Bunlar əsasən toksik kataraktalara və toksik qlaukomalara həsr olunmuş elmi işlərdən, tələbələr və oftalmoloq həkimlər üçün nəzərdə tutulan məruzələrdən ibarət idi".

Bir-birindən dəyərli 150-dən çox elmi əsərin, 10 monoqrafiyanın, 12 səmərələşdirici təklifin və dərs vəsaitlərinin müəllifi olan, Azərbaycan oftalmologiya elmini bütün dünyada tanıdan Zərifə Əliyevanın açdığı yol ildən-ilə genişlənir, zəngin irsi, pedaqoji fəaliyyəti dönə-dönə araşdırılır, öyrənilir və neçə-neçə tədqiqat əsərinin mövzusuna çevrilir.

Təbabətdə öz dəst-xəti olan novator alimin oftalmologiyanın müxtəlif sahələrində yorulmadan apardığı tədqiqatlar, yaratdığı fundamental əsərlər müasir dövrdə də aktuallığını itirməyib. Böyük alimin əziz xatirəsi xalqımızın qəlbində yaşayır, nurlu obrazı bu gün də davamçılarının yolunu işıqlandırır.

DƏNİZ AKADEMİYASININ TƏLƏBƏLƏRİ "AXDG" QSC-DƏ TƏCRÜBƏ KEÇİBLƏR

Azərbaycan Dövlət Dəniz Akademiyasının IV kurs tələbələri Ramal Səmədzadə, Cəmilə Məmmədova, Fərhad Məmmədli və Məqsəd Xəlilzadə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-də təcrübə keçiblər.

16 fevral-26 aprel tarixlərini əhatə edən təcrübə müddətində tələbələr "AXDG" QSC-nin İstismar-kommersiya departamenti və Strateji inkişaf və investisiya layihələri departamentinin peşəkar kadrlarının təcrübələrindən bəhrələniblər.

Tələbələr təcrübə zamanı tədrisdə, dərsdə qazandıqları bilikləri iş prosesində tətbiq etməyi, komanda ilə işləməyi öyrəniblər. Hər dörd tələbə yenilikləri mənimsəmələri, iş prosesinə uyğunlaşmaları, tapşırıqları vaxtında həll etmələri ilə fərqlənib.

Onu da deyək ki, tələbələr təcrübəyə başlamazdan əvvəl "AXDG" QSC-nin və Akademiyanın müvafiq mütəxəssisləri tərəfindən "Əməyin Mühafizəsi və Təhlükəsizlik Texnikası üzrə giriş təlimatı" və "Yanğına Qarşı Təhlükəsizlik texnikasının təlimatı" ilə məlumatlandırılıblar.

Qeyd edək ki, Azərbaycan Dövlət Dəniz Akademiyası ölkəmizdə dənizçi kadrlar hazırlayan yeganə ali təhsil müəssisəsidir. Akademiyada dənizçilik ixtisasları üzrə təhsilin bütün pillələrində tədris mövcuddur.

Tədrisin təkmilləşdirilməsi, onun elm və istehsalatla əlaqələrinin möhkəmləndirilməsi prosesi ADDA-da daim diqqət mərkəzində saxlanılır.

BOLQARISTAN MƏRKƏZİ VƏ QƏRBİ AVROPAYA "İPƏK YOLU" AÇA BİLƏR

Bolqarıstan Çin malları üçün bir növ körpü rolu oynayaraq, Mərkəzi və Qərbi Avropaya "İpək yolu" aça bilər.

novinite.ru saytı xəbər verir ki, Bolqarıstanın nəqliyyat naziri İvaylo Moskovski bunu Transxəzər nəqliyyat dəhlizi barədə parlament sorğusuna cavab olaraq bildirib.

Nazir xatırladıb ki, 2013-cü il noyabrın 7-də Astana şəhərində keçirilən "Yeni İpək yolu" mövzusunda II Beynəlxalq nəqliyyat-logistika biznes forumu çərçivəsində regionun üç aparıcı şirkətinin – "Qazaxıstan temir yolı" milli şirkəti səhmdar cəmiyyətinin, "Azərbaycan dəmir yolları" Qapalı Səhmdar Cəmiyyətinin və "Gürcüstan dəmir yolları" Səhmdar Cəmiyyətinin liderləri Avropa ilə Aşıya arasında yük axınının artırılması məqsədilə Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (TBNM) layihəsinin əlaqələndirilməsi üzrə komitə yaradılması barədə razılığa gəliblər.

TBNM Çindən Avropaya və əks istiqamətdə yüklərin Transxəzər marşrutu ilə daşınması üçün Çin, Qazaxıstan, Azərbaycan, Gürcüstan və Türkiyənin nəqliyyat-logistika şirkətlərinin təşəbbüsüdür.

Bolqarıstanın "BDJ – yük daşımaları" dövlət dəmir yolu operatoru Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizi layihəsinə qoşulmaq barədə 2016-cı ilin əvvəlindən danışıqlar aparır.

İ.Moskovski deyib: "Bolqarıstan özünün strateji coğrafi mövqeyi sayəsində Çin malları üçün bir növ körpü rolu oynayaraq Mərkəzi və Qərbi Avropaya "İpək yolu" aça bilər".

2017-ci ildə "BDJ – yük daşımaları" dövlət dəmir yolu operatoru "Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu" Beynəlxalq Assosiasiyasına qoşulmaq üçün rəsmi dəvət alıb.

MULTİMODAL DAŞIMALARIN REGİONAL ƏLAQƏLƏNDİRİLMƏSİ MƏSƏLƏLƏRİ MÜZAKİRƏ EDİLİB

Aşqabadda Xəzəryanı dövlətlərin səlahiyyətli nümayəndələrinin növbəti iclasında Azərbaycan, İran, Qazaxıstan, Rusiya və Türkmənistanın müvafiq nazirlik və idarələrinin rəhbərləri və aparıcı mütəxəssisləri iştirak ediblər.

Müşavirədə qeyd edilib ki, milli iqtisadiyyatların artımında mühüm amil olan nəqliyyat sahəsi dostluq və mehriban qonşuluq, bir-birinin mənafelərinə hörmət ruhunda əməkdaşlıq edən Xəzər regionu ölkələri arasında konstruktiv və səmərəli münasibətlərin formalaşmasında mühüm əlaqələndirici halqa rolu oynayır. Bu dövlətlərin Avropa ilə Aşıya arasında əlverişli



coğrafi mövqedə yerləşməsi tranzit daşımalar, logistika xidmətləri göstərilməsi sahəsində böyük imkanlar yaradır.

Bu gün Xəzəryanı ölkələrin hər biri dəniz, avtomobil, dəmir yol və aviasiya nəqliyyatı ilə sərnişin və yük daşınmasının müasir infrastrukturunun yaradılması ilə bağlı iri investisiya layihələri həyata keçirir. Belə layihələrə nümunə kimi, Türkmənbaşı şəhərində tikilməkdə olan, tezliklə istifadəyə veriləcək beynəlxalq limanı göstərmək olar. Mövcud qitələrarası marşrutların daha da fəallaşdırılması və Xəzərdən keçən yeni beynəlxalq nəqliyyat dəhlizlərinin formalaşması qonşu dövlətlərin bundan sonra da dinamik sosial-iqtisadi inkişafı üçün şərait yaradacaq, onların investisiya cəlbediciliyini artırmağa imkan verəcək, regional və regionlararası ticari-iqtisadi, mədəni-humanitar və turizm əlaqələrinin möhkəmlənməsinə kömək edəcək.

İclas iştirakçıları regional multimodal daşımaların əlaqələndirilməsi ilə bağlı geniş əhatəli məsələləri müzakirə ediblər. Məqsəd bu daşımaların bir-birini qarşılıqlı tamamlanmasını, yüksək rəqabət qabiliyyətini təmin etmək, nəqliyyatın müxtəlif növlərinin qarşılıqlı fəaliyyəti üçün texnoloji sxemlər hazırlamaq, habelə gömrük qanunvericiliyini, tarif siyasətini sınxronlaşdırmaq, tranzit yüklərin sənədləşdirilməsi prosedurlarını sadələşdirməkdir.

"BABƏK" TANKERİ İSTİSMARA QAYTARILIB

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Dəniz Nəqliyyat Donanmasına məxsus "Babək" gəmisi təmir olunub.

"Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunda aparılan tərsanə təmirindən sonra tanker dəniz sınaq yoxlanışından uğurla keçib.

Tankerin baş və köməkçi mühərrikləri əsaslı təmir olunub, sualtı və suüstü hissəsi, maşın şöbəsi təmizlənərək rənglənib.

Bundan başqa, gəminin avar valı sazlanaraq yerinə quraşdırılıb, bəzi elektrik avadanlıqları yeniləri ilə əvəzlənib, köhnələri təmir olunub. Eyni zamanda göyərtədə və maşın şöbəsində boruquraşdırma işləri yerinə yetirilib.

"Babək" gəmisi artıq istismara qaytarılıb.

Məlumat üçün bildirək ki, uzunluğu 149, 9 metr, eni 17,3 metr olan "Babək" gəmisinin yükgötürmə qabiliyyəti 13 min tondur.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin tanker donanması Xəzər hövzəsində aparıcı mövqeyə malikdir. Hazırda Bakı Gəmiqayırma Zavodunda AXDG üçün gəmiqayırmanın son nailiyyətləri əsasında iki yeni tanker tikilir.

AZƏRBAYCANDA TÜRKMƏNİSTANA MƏXSUS GƏMİNİN TƏMİRİ UĞURLA BAŞA ÇATDIRILIB

Türkmənistan Respublikasının Dəniz Ticarət Donanmasına məxsus "Berkarar" gəmi-bərəsi "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunda təmir olunub.

Təmir vaxtında və yüksək keyfiyyətlə yerinə yetirilib.

Belə ki, zavodda gəminin sualtı və suüstü hissələri təmizlənib və rənglənib.

Bundan başqa, "Berkarar" gəmisinin hər iki baş mühərriki, dizel generatorları, 6 nasosu təmir olunub, elektrik sistemləri sazlanıb. Eyni zamanda həm maşın şöbəsində, həm də göyərtdə boruquraşdırma işləri görülüb.

Təmirdən sonra gəmi dəniz sınağından keçib. Sınaq uğurla başa çatıb.

Artıq gəmi sahibinə təhvil verilib.

Qeyd edək ki, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC regionda güclü gəmi təmiri bazasına malikdir. Həm "Bibiheybət" Gəmi Təmiri Zavodu, həm də "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodu mütəmadi xarici ölkələrdən sifarişlər alır.

"TAP AG" ŞİRKƏTİ ALBANİYADA MBROSTAR SU TƏCHİZATI SİSTEMİNİ YENİDƏN QURUB

Trans Adriatic Pipeline

Azərbaycan təbii qazını Avropaya daşıyacaq "Trans-Adriatik" (TAP) qaz boru kəmərinin operatoru olan "TAP AG" şirkəti Albaniyanın Fier Bələdiyyəsindəki Mbrostar su təchizatı sisteminin yenidən qurulmasını tamamlayıb.

Su təchizatı sisteminin yenilənməsinə təxminən 556 min 500 avro məbləğində sərmayə qoyulub. Su sistemi hazırda bu bölgənin 6 kəndində 10 mindən çox sakinə xidmət göstərir.

Mbrostar su təchizatı sistemi Petova, Makaj, Verri, Kallm, Mojalli və Mbrostar kəndlərinin su təchizatında yaranmış problemin həllinə kömək edib. Köhnə sistem yeni borularla əvəz edilib. Bununla yanaşı, iki yeni quyu qurulub və Petovadakı su anbarı bu sistemin təchizatını artırmaq üçün bərpa olunub. Mbrostar su təchizatı sisteminin boru xətləri 13 kilometrdən çox uzanır.

Albaniyanın Su İnfrastruktur və Enerji Nazirliyinin su məsələləri üzrə müşaviri Lindita Sotiri deyib: "Bu investisiyalar yerli icmaların uzunmüddətli problemlərinin həllinə yönəlib. Əminəm ki, oxşar infrastruktur investisiyaları TAP-ın Albaniya marşrutu boyunca digər yerli icmaların da həyat şəraitinin yaxşılaşdırılmasına xidmət edəcək".

TAP-ın Albaniya üzrə müvəqqəti meneceri Michele Elia bildirib: "TAP boru kəmərinin marşrutu boyunca yerli icmaların inkişafını çoxsaylı sosial və ətraf mühit investisiyaları vasitəsilə dəstəkləyir. Mbrostari su təchizatı sistemi TAP-ın Albaniyadakı ən böyük investisiyalarından biridir".

Xatırladaq ki, ilin əvvəlində Avropa İnvestisiya Bankının İdarə Heyəti Yunanıstan, Albaniya və Adriatik dənizindən keçərək İtaliyanın təbii qaz şəbəkəsinə qoşulmaq üçün Cənubi İtaliya sahillərinə çıxan TAP boru kəməri üçün 1,5 milyard avro məbləğində maliyyələşdirməni təsdiqləyib. Bank bildirir ki, layihə Cənub Qaz Dəhlizinin bir hissəsidir və Avropa İttifaqının enerji siyasəti çərçivəsində strateji cəhətdən əhəmiyyətli bir komponent kimi, Avropa Şurası, Avropa Komissiyası və Avropa Parlamenti tərəfindən müəyyən edilən təşəbbüsdür.

Qeyd edək ki, TAP qaz boru kəməri layihəsi üzrə işlərin - mühəndis, təchizat və tikinti işləri də daxil olmaqla ümumilikdə 68,7 faizi yekunlaşıb. Boru kəmərinin 765 kilometrlik Yunanıstan və Albaniya hissəsinin 610 kilometrində borular torpağa basdırılıb. Beləliklə də TAP-ın Yunanıstan və Albaniya marşrutunun 80 faizi tamamlanıb. Bu hissədə torpaq örtüyünün 52 faizi əvvəlki vəziyyətinə gətirilib. Boruların 87 faizi, 670 kilometr boru qaynaq olunub. TAP-ın 215 kilometrlik Albaniya hissəsində isə 150 kilometr boru xəndəyə endirilib.

İndiyədək Cənub Qaz Dəhlizinə daxil olan layihələrdə "Cənub Qaz Dəhlizi" QSC-nin mülkiyyətində olan iştirak paylarının maliyyələşdirilməsinə 9 milyard dollar investisiya qoyulub. Bu vəsaitin 0,7 milyard dollar TAP layihəsinə xərclənib.

Boru kəmərinin Adriatik dənizindən keçəcək 105 kilometrlik hissəsinin tikintisini həyata keçirəcək İtaliyanın "Saipem S.p.A" şirkəti hazırda mikrotunel sahələrində çalışır. Burada müvəqqəti yol və sahə hazırlığı tamamlanıb. TAP-ın podratçısı hazırda mikrotunelin tikintisini həyata keçirmək üçün çuxurun qazılması işlərini görür. TAP-ın keçdiyi 3 ölkədə işçilər 61,5 milyon kilometr yol qət edib və 22,5 milyon nəfər-saat iş görülüb. Layihə qrafikə uyğun icra edilir və TAP 2020-ci ilədək Azərbaycanın "Şahdəniz" yatağından ilk qazı almağa hazır olacaq.

TAP Avropa İttifaqı üçün prioritet enerji layihələrindən olan "Cənub Qaz Dəhlizi"nin bir seqmentini təşkil edir. Boru kəmərinin təməli 2016-cı il mayın 17-də Yunanıstanın Saloniki şəhərində qoyulub. Layihənin ümumi dəyəri 4,5 milyard avro olacaq. Buraya 2009-cu ildən bəri davam edən dizayn və mühəndislik işləri də daxil edilib. "Şahdəniz" konsorsiumu ilk qaz satışını 2018-ci ildə Türkiyəyə və Gürcüstana həyata keçirəcək. Avropaya ilk qazın verilməsi isə bundan təxminən 1 il sonra 2020-ci ilin əvvəllərində planlaşdırılır.

Boru kəmərinin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olan ilkin layihəsi üzrə biri Yunanıstanın şərqində - Kipoidə, digəri isə Albaniyanın qərbində - Fierdə olmaqla, ümumilikdə iki kompressor stansiyasının tikintisi qrafikə uyğun davam etdirilir. Kompressor stansiyaları ilə yanaşı, həmçinin Albaniyanın şərqində Bilisht regionuna yaxın ərazidə bir ölçmə stansiyasının inşası aparılır. Kompressor və ölçmə stansiyalarının tikintisi təxminən iki il müddətində başa çatdırılacaq. Bundan sonra isə ilkin istismara hazırlıq və tam istismara verilmə üzrə yoxlamalar keçiriləcək. TAP qaz boru kəməri üçün lazım olan turbo kompressorlar "Siemens" şirkəti tərəfindən istehsal edilib. Boru kəmərinin dəniz hissəsi isə 2018-2019-cu illərdə inşa ediləcək.

Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından hasil olunacaq qazı Türkiyəyə və bu ölkədən də Avropaya daşıyacaq 3 min 500 kilometr uzunluğundakı "Cənub Qaz Dəhlizi"nin tərkib hissəsi olan TAP layihəsi Cənubi Qafqaz Boru Kəmərinin və TANAP-ın davamı olub, "Şahdəniz-2"dən hasil olunacaq qazın Yunanıstan və Albaniya vasitəsilə, Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya nəqlini nəzərdə tutur. TAP boru kəməri TANAP ilə birləşəcək və Yunanıstanın Türkiyə ilə sərhəddə yerləşən Kipoi ərazisindən başlayacaq. Buradan TAP boru kəməri Yunanıstan və Albaniya ərazisini qət edərək şərqdən qərbə Adriatik dənizi sahillərinə doğru istiqamətlənəcək və İtaliyanın Puqlia bölgəsində sahilə çıxacaq. Boru kəməri burada "Snam Rete Gas" şirkətinin istismar etdiyi İtaliyanın qaz nəqliyyatı şəbəkəsinə birləşəcək. Bu layihə Azərbaycan qazının İtaliya, Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılması üçün böyük imkanlar yaradır. TAP-ın ilkin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olacaq və bu həcmin gələcəkdə 20 milyard kubmetrədək artırılması nəzərdə tutulub.

Boru kəmərinin uzunluğu 878 kilometr (Yunanıstan–550 kilometr, Albaniya–215 kilometr, Adriatik dənizi–105 kilometr, İtaliya–8 kilometr), diametri isə 48 düymdür (sualtı hissə-37 düym). Boru kəmərinin ən aşağı hissəsi dəniz səviyyəsindən təxminən 820 metr dərinlikdə, ən yüksək hissəsi Albaniya dağlarında 1800 metr hündürlükdən keçəcək. 2020-ci ilədək layihə üzrə Azərbaycan şirkətlərinin xərclərinin 1,2 milyard dollar olması gözlənilir.

TAP-ın səhmdarları belədir: BP (20 faiz), SOCAR (20 faiz), "Snam S.p.A." (20 faiz), "Fluxys" (19 faiz), "Enagás" (16 faiz) və "Axpo" (5 faiz).

Nihad Budaqov

DÜNYA NEFT SƏNAYESİNİN ƏN QƏDİM MİRASI - BİBİHEYBƏT MƏDƏNİ

Ötən il SOCAR-ın Bibiheybət mədəninin ərazisində dünyada sənaye üsulu ilə qazılmış ilk quyu bərpa edilib. Prezident İlham Əliyev keçən il aprelin 26-da həmin quyunun bərpadan sonrakı vəziyyəti ilə tanış olub. Burada XIX əsrdə "Nobel qardaşları neft hasilatı şirkəti"nə məxsus neft və neft məhsullarının daşınması üçün ağcaqayın ağacından hazırlanmış faner borunun bir hissəsi, həmçinin həmin şirkətin sifarişinə əsasən Bakıya gətirilmiş quyuüstü avadanlıqlar da nümayiş olunur. Həmçinin burada xüsusi interaktiv köşk quraşdırılıb. Bu köşk vasitəsilə Azərbaycanın neft tarixi, o cümlədən sənaye üsulu ilə qazılmış ilk quyu barədə ətraflı məlumat almaq mümkündür. İnteraktiv köşkə, eyni zamanda, ulu öndər Heydər Əliyevin və dövlətimizin başçısı İlham Əliyevin həyata keçirdikləri neft strategiyası haqqında məlumat, Azərbaycanın neft sənayesi ilə bağlı tarixi foto və videolar da yerləşdirilib.

Azərbaycan neftçilərinin əsrlərə dayanan təcrübəsi

Tarixə nəzər salaq. Hələ qədim dövrlərdən Azərbaycan dünyada neftin vətəni sayılırdı. Bakının neft mədənlərində quyular bir qayda olaraq əl ilə qazılırdı. XIX əsrin əvvəllərindən etibarən neft quyularının daha mütərəqqi üsullarla qazılması istiqamətində araşdırmalara başlanıldı. 1840-cı illərdə daha mütərəqqi üsullarla quyular qazmaq və neft hasilatını artırmaq üçün yollar axtarılırdı. Tarixi mənbələr və son illərdə Rusiyanın Mərkəzi Dövlət Tarix Arxivindən tapılmış sənədlər dünyada sənaye üsulu ilə neft quyusunun qazılmasına Bibiheybətdə başlanıldığını bir daha sübut etdi.

Belə sənədlərdən biri Zaqafqaziya Vilayəti Baş İdarəsinin Şura üzvü, dövlət müşaviri Vasili Semyonovun bu vilayətin baş komandanı general Aleksandr Neydqarta yazdığı 1844-cü il 22 dekabr tarixli məktubdur. Məktubda Semyonov Abşeron yarımadasındakı neft mədənlərini ətraflı təsvir edir, hasilatın artırılması üçün konkret texniki və təşkilati təkliflər verir. Semyonovun məktubuna müsbət rəy verildikdən sonra 1845-ci ilin aprelində maliyyə naziri Fyodor Vronçenkonun göstərişi ilə Kaspi Xəzinə Palatası tərəfindən qazma işlərinə min gümüş sikkə ayrılır və Bibiheybət rayonunda kəşfiyyat quyusunun qazılması haqqında tapşırıq verilir. 1846-cı ilin yanvarında Bakı neft və duz mədənlərinin direktoru, dağ mühəndisləri korpusunun podpolkovniki Nikolay Voskoboynikovun rəhbərliyi ilə Bibiheybət yatağında iki quyunun qazılmasına başlanılır. Quyulardan biri 21 metr dərinlikdən neft verir və bununla da dünyada sənaye üsulu ilə neft hasilatının əsası qoyulur. 1847-ci il 8-14 iyul tarixlərində Qafqaz canişini knyaz Mixail Vorontsovun imzaladığı hesabatlarda da dünyada ilk neft quyusunun Xəzər dənizinin sahilində qazılması faktı təsdiq olunur.

Neftçıxarma işində əldə olunmuş inqilabi yeniliklər XIX əsrin 50-ci illərində Abşeronda hasilatın yüksəlməsinə, emal sənayesinin yaranmasına böyük təkan verdi. Mexaniki üsulla quyu qazılması texnikasının və texnologiyasının inkişafı sayəsində Bakıda bir sıra yeni neft yataqları istismara verildi, quyular qazıldı, hasilat artırıldı, neft sənayesi infrastrukturu inkişaf etdirildi. 1899-1901-ci illərdə 11,5 milyon ton neft hasil edən Bakı neft sənayesi dünyada birinci yeri tuturdu. Müqayisə üçün deyək ki, 1859-cu ildə sənaye üsulu ilə neft quyularının qazılmasına başlanılmış Amerika Birləşmiş Ştatlarında isə bu göstərici o zaman 9,1 milyon ton təşkil edirdi.

Sovet dövründə də Azərbaycan neft respublikası kimi özünü göstərdi. İkinci Dünya müharibəsi dövründə Azərbaycan neftçilərinin əməyi olmasaydı, müharibənin nəticələri tam başqa cür də ola bilərdi. Azərbaycan neftçiləri faşizm üzərində Qələbədə həlledici rol oynadılar.

İbrahim Əhmədov:
SOCAR dünyanın ən qədim neft sənayesinin varisidir

Bibiheybət mədəninin ölkəmizin neft sənayesi üçün əhəmiyyətindən danışan SOCAR-ın ictimaiyyətlə əlaqələr üzrə rəsmisi İbrahim Əhmədov AZƏRTAC-a bildirib: "Azərbaycan neft sənayesinin beşiyidir. Bu da daim ölkəmizi səciyyələndirən məsələlərdən biri olub. SOCAR dünyanın ən qədim neft sənayesinin varisidir. Şirkət Azərbaycanın neft tarixinin ənənələrini yaşadır və onlardan bəhrələnir".

"Hələ qədim dövrdə Bakı və Abşeron yarımadası öz neft yataqları ilə məşhur olub, lakin dünyada ilk dəfə XIX əsrin ortalarında, 1846-cı ildə Bibiheybətdə sənaye üsulu ilə neft quyusu qazılıb. Bu hadisə neft sənayesində bir çox ilklərin başlanğıc nöqtəsi olub. Növbəti illərdə ilk tanker, ilk boru kəmərinin tikilməsi və neft sənayesində bir çox digər ixtiralar da ilk dəfə məhz Azərbaycanda reallaşdırılıb. Həmin dövrdə karbohidrogenlər dünyada sənaye inqilabının aparıcı qüvvəsinə çevrilmişdi. Beləliklə də XX əsrin əvvəlində artıq dünyanın neft tələbatının yarıdan çoxunu qarşılayan Azərbaycan müasir dünya sənayesinin ərsəyə gəlməsində birbaşa iştirak edərək, bu prosesdə təkanverici rol oynamışdı", - deyə SOCAR-ın rəsmisi əlavə edib.

İ.Əhmədov deyib ki, dünyanın neft sənayesinin ən qədim mirası bizi bir tərəfdən xüsusi çağırışlarla üzləşdirir, digər tərəfdən isə xüsusi imkanlar yaradır: "Azərbaycanda bəzi yataqlar artıq 100-150 il boyunca istismar edilir. Hər bir yataq işləndikcə onun neftvermə əmsalı, təbii olaraq, azalmalıdır. Bu da ən qədim neft sənayesinin qarşımıza gətirdiyi çağırışlardan biridir. Lakin dünyanın ən qədim neft yataqlarında işləyən Azərbaycan neftçiləri həm də bu sahədə ən böyük təcrübəyə malikdirlər. Bu gün Azərbaycan neftçiləri hətta bəzi köhnə yataqlarda hasilatı dirçəltməyə və yenidən artırmağa nail olurlar. Ötən il dünyanın ən qədim neft yatağının yerləşdiyi "Bibiheybət" neft və qazçıxarma idarəsi (NQÇİ) üzrə hasilat 2 faizə yaxın artırılıb. SOCAR-ın istismar etdiyi yataqların bir çoxu köhnə yataqlar olsa da, SOCAR-ın əsas hasilatçı bölümü "Azneft" İstehsalat Birliyi (İB) üzrə hasilatın maya dəyəri dünyada ən aşağı səviyyələrdədir. Köhnə yataqlarda bu qədər uğurlu göstəricilərə nail olmağımız, şübhəsiz ki, insan faktoru ilə bağlıdır. Burada ölkə rəhbərliyinin uzaqgörən strateji kursunu, Azərbaycan neftçilərinin fədakar və gərgin zəhmətini və şirkətin məharətli idarəolunmasını xüsusi qeyd etmək lazımdır".

"Beləliklə Azərbaycan neftçilərinin əsrlərə dayanan təcrübəsi bu gün SOCAR-ın ən dəyərli aktivlərindən biridir. Bir il əvvəl bərpa edilmiş dünyanın ilk sənaye üsulu ilə qazılmış neft quyusu bu ənənəni təcəssüm edir, Azərbaycan neftçilərini yeni nailiyyətlərə ruhlandırır, böyük tarixin rəmzi kimi SOCAR üçün mühüm əhəmiyyət kəsb edir", - deyə o bildirib.

SOCAR-ın rəsmisi qeyd edib ki, keçmiş uğurları gələcəkdə davam etdirmək üçün SOCAR bu gün müasir texnologiyaların tətbiqetmə imkanlarını araşdırır. Şirkət üzrə rəqəmsallaşma həyata keçirilir, hasilat sahəsində rəqəmsal nəzarət və idarəetmə modulları istifadə olunur: "Sənayenin rəqəmsallaşması istiqamətində SOCAR və IBM şirkətləri arasında birgə müəssisə - regional informasiya texnologiyaları mərkəzinin yaradılması mühüm addımlardan biri olub. Süni intellekt kimi yeni texnologiyaların tətbiqi idarəetmənin daha da optimallaşdırılmasına mühüm töhfə verəcək, işimizin səmərəsini daha da artıracaq. Lakin süni intellekt, məlumat bazasından ayrı olsa, heç bir təhlil aparmağa qadir olmaz. Süni intellektin maksimum səmərə ilə işləməsi üçün onun əsrlər boyu verilən müxtəlif qərarlar, istismar göstəriciləri ilə, bir sözlə, dünyanın ən qədim neft sənayesinin tarixi təcrübəsi ilə calaşdırılması lazımdır. Beləliklə Azərbaycanın qədim neft ənənəsi keçmişdə qalmayacaq, gələcəkdə də yaşayacaq, neft tariximizin keçmiş nailiyyətləri gələcək uğurlarımıza da zəmin yaradacaq.

Ötən il Azərbaycanın neft sənayesində daha bir əlamətdar hadisə baş verdi və ölkədə iki milyardıncı ton neft hasil olundu. Bütövlükdə indiyədək çıxarılmış 2 milyard tondan çox neftin təxminən 700 milyon tonu müstəqillik dövründə, onun 460 milyon tondan artığı isə konsorsium tərəfindən hasil edilib. Ölkəmizin dəqiqləşdirilmiş neft ehtiyatları 1,5 milyard tondur, proqnoz isə 2 milyard tondur. Dünya neft sənayesi tarixinə öz möhürünü vuran Azərbaycan hazırda qaz istehsalçısı və ixracatçısı kimi də qlobal miqyasda tanınır. Ölkəmizin təsdiq edilmiş qaz ehtiyatları 2,6 trilyon kubmetr, proqnoz isə təqribən 3-4 trilyon kubmetrə bərabərdir. Azərbaycan hazırda dünya miqyasında nəhəng layihə olan və sərmayə qoyuluşu 40 milyard dollara bərabər olan Cənub Qaz Dəhlizini reallaşdırır. Bu layihə nəinki regionun, eləcə də, dünyanın enerji xəritəsini dəyişəcək. Bütün bu sadalananlar deməyə əsas verir ki, neftin vətəni Azərbaycandır, neft sənayesi, bax, bu diyardan başlanıb. Bu gün - artıq 200 ilə yaxın vaxt keçəndən sonra da Azərbaycan dünyada neft ölkəsi, qaz ölkəsi kimi öz sözünü deyir.

AZƏRBAYCAN DÖVLƏT DƏNİZ AKADEMİYASI TÜRKİYƏNİN ƏN QABAQCIL ALİ MƏKTƏBLƏRİNDƏN BİRİ İLƏ ƏMƏKDAŞLIQ EDƏCƏK

İstanbulda yerləşən Yıldız Texniki Universitetinin rektoru, professor Bahri Şahin Azərbaycan Dövlət Dəniz Akademiyasında rektor Çingiz Əliyevlə görüşüb.

Görüşdə qonaq Türkiyənin ali məktəblərinin birinci beşliyinə daxil olan Yıldız Texniki Universitetində tədrisin və elmi fəaliyyətin təşkili, inkişaf perspektivləri barədə ətraflı məlumat verib.

Türkiyəli həmkarı ilə görüşə şad olduğunu deyən Çingiz Əliyev öz növbəsində Azərbaycan Dövlət Dəniz Akademiyasının tarixi və bu günü haqqında söhbət açıb, qarşılıqlı faydalı iş birliyi üçün geniş imkanların mövcudluğunu qeyd edib.

Danışıqların yekununda Azərbaycan Dövlət Dəniz Akademiyası ilə Yıldız Texniki Universiteti arasında beynəlxalq əməkdaşlıq haqqında protokol imzalanıb. Bu sənəd tədqiqatçıların, müəllimlərin və tələbələrin mübadiləsini, birgə elmi konfrans, simpozium və seminarların, elmi-tədqiqat işləri və mühazirələrin təşkilini nəzərdə tutur. Bununla yanaşı, idman və mədəni tədbirlər çərçivəsində də müştərək fəaliyyət göstərilməsi planlaşdırılır.

Görüşdən sonra professor Bahri Şahin Akademiyanın tədris bazası, o cümlədən müasir naviqasiya trenajorları ilə yaxından tanış olub, ADDA ilə əməkdaşlığın əməli nəticələri istiqamətində əlindən gələni edəcəyini vurğulayıb.

ADDA-DA "AÇIQ MİKROFON" GÜNÜ

Azərbaycan Dövlət Dəniz Akademiyasında aparılan çoxsaylı islahatların, yeniliklərin hər biri tələbələrin hərtərəfli inkişafına yönəlib.

Fəaliyyətə başladığı ilk gündən tələbələrin problemləri ilə yaxından maraqlanıb onlara hər cür şərait yaradan, hər bir tələbəyə xüsusi qayğı göstərən rektor Çingiz Əliyevin tələbələrlə görüşü bu yöndə atılan növbəti addımlardan biridir.

Akademiya tarixində ilk olan bu görüşdə məqsəd hər bir tələbə-gəncin istər təhsil, istərsə də sosial problemini öyrənmək, onların istək və arzularını, təkliflərini dinləmək idi.

"Açıq mikrofon" günündə Akademiyanın hər qrupdan ən fəal tələbə-gənclər, tələbə təşkilat rəhbərləri və üzvləri iştirak ediblər.

Tələbələr yüksək fəallıq göstərərək akademiya rəhbərinə tədris prosesi, təlim, təhsil və sosial məsələlər ətrafında suallarla müraciət ediblər. Həm yazılı, həm də şifahi formada ünvanlanan çoxsaylı sualları cavablandıran rektor tələbələrə öz məsləhət və tövsiyələrini verərək bir çox problemlərə elə yerindəcə aydınlıq gətirib.

Bütün tələbələr hər bir sualı böyük səbr və təmkinlə dinləyərək ətraflı cavablandıran akademiya rəhbərinə yaratdığı hər cür şərait və imkanlara görə öz minnətdarlıqlarını bildiriblər.

Sonda belə görüşlərin əhəmiyyətindən danışan Ç.Əliyev bu addımın ənənəvi olaraq ildə bir neçə dəfə atılacağına söz verib.

"AXDG" QSC-NİN HESABINA TƏLƏBƏLƏRƏ ƏLAVƏ TƏQAÜD VERİLƏCƏK

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin əsas strateji hədəflərindən biri də gənclərdən ibarət peşəkar kadrların hazırlanmasıdır. Bu məqsədlə "AXDG" QSC-nin daxili imkanları hesabına mütəmadi olaraq beynəlxalq səviyyədə tanınan təcrübəli gəmiçilərin təlimləri təşkil edilir, gənc əməkdaşların dənizçilik sahəsində ixtisaslaşan nüfuzlu şirkətlərdə təcrübə keçmələri üçün xüsusi layihələr həyata keçirilir.

"AXDG" QSC-nin Təqaüd Proqramına uyğun olaraq hər il magistr təhsili almaq üçün ADDA məzunları dünyanın nüfuzlu ali məktəblərinə göndərilir. Bu, şirkətin kadr potensialının formalaşmasında savadlı, beynəlxalq standartlara cavab verən gənc dənizçilərə üstünlük verməsinin bariz nümunələrindən biridir.

Bundan başqa, Azərbaycan Dövlət Dəniz Akademiyası tələbələrinin beynəlxalq standartlara uyğun inkişafının təmini və peşəkarlığının artırılması məqsədi ilə onların AXDG-nin xarici sularda üzən gəmilərində təcrübə keçmələrinə imkan yaradılır.

Digər tərəfdən, buraxılış imtahanlarından və müsahibələrdən uğurla keçən məzunlara Gəmiçilikdə çalışmaları üçün "Zəmanət Məktub"u verilir.

Bütün bunlarla yanaşı, "AXDG" QSC rəhbərliyinin qərarına əsasən dənizçilik sahəsində təhsil alan tələbələrin təhsilə olan maraqlarını artırmaq, onların peşəkar dənizçi kimi yetişmələrinə dəstək olmaq üçün həvəsləndirici layihələr də həyata keçirilir. Bu istiqamətdə daha bir mühüm addım atılıb.

Belə ki, Azərbaycan Dövlət Dəniz Akademiyasında və Akademiyanın nəzdində fəaliyyət göstərən Dənizçilik Kollecində əyani təhsil alan və təhsilində yüksək nəticələr göstərən tələbələrə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin hesabına əlavə təqaüd veriləcək. Bununla bağlı "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən xüsusi qaydalar hazırlanıb və təsdiqlənib.

Qaydalara əsasən, bu imkandan yalnız Azərbaycan vətəndaşları olan tələbələr yararlana biləcəklər.

Təqaüd tələbələrin yüksək müvəffəqiyyət göstəricilərinə əsasən veriləcək. Belə ki, imtahan sessiyasının nəticələrinə görə hər bir fənn üzrə göstəricisi 91 baldan az olmayan, başqa sözlə, bütün fənlər üzrə 91-100 bal toplayan tələbələrə "AXDG" QSC tərəfindən hər ay 100 manat təqaüd ödəniləcək.

ADDA-ya 550 və ondan yüksək balla yeni qəbul olmuş tələbələr də həmin siyahıya daxil edilir və birinci tədris ilinin birinci semestrində onlara da təqaüd verilir. Sözügedən tələbələrə növbəti dövrlərdə təqaüd verilib-verilməməsi məsələsi imtahan sessiyasının nəticələrinə əsasən müəyyənləşdiriləcək.

Digər tərəfdən, tələbənin müvafiq semestr ərzində hər hansı fənn üzrə göstəricisi 91 balddan az olduqda, tələbə imtahan sessiyasına buraxılmadıqda, şiddətli töhmət aldıqda, ADDA və Kollecdən xaric olunduqda, təqaüd dayandırılacaq.

Bununla belə, istehsalat təcrübəsi və tətil müddətlərində işləyib-işləməmələrindən asılı olmayaraq tələbələrin təqaüd alma hüquqları saxlanılacaq. Hamiləliklə, doğuşla əlaqədar və müvəqqəti əmək qabiliyyətini itirmiş tələbələrə səhiyyə müəssisələrinin verdiyi xəstəlik vərəqəsinə əsasən müəyyən olunmuş müddətdə təqaüd tam həcmdə ödəniləcək.

Ümumiyyətlə isə, qaydalara əsasən təqaüd verilərkən tələbələrin dövlət hesabına və ya ödənişli əsaslarla təhsil almalarına fərq qoyulmayacaq. Həmçinin, bu təqaüdlərin təyin edilməsi tələbələrə dövlət tərəfindən təsis edilən təqaüdlərin verilməsini dayandırmır.

BAKIDA "XƏZƏR VƏ MƏRKƏZİ ASİYA: TİCARƏT, LOGİSTİKA, NEFT EMALI, NEFT-KİMYA" FORUMU KEÇİRİLİB

Aprelin 23-25-də Bakıda SOCAR-ın III Beynəlxalq "Xəzər və Mərkəzi Asiya: Ticarət, Logistika, Neft emalı, Neft-kimya" Forumu keçirilib.

Forumda çıxış edən Bakı Ali Neft Məktəbinin (BANM) rektoru Elmar Qasımov tədbirin ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunduğunu deyib.

O bildirib ki, Bakı Ali Neft Məktəbinin və Böyük Britaniyanın "Confidence Capital Ltd" şirkətinin birgə təşkilatçılığı ilə keçirilən forumda 30 ölkədən 230-dək iştirakçı və məruzəçi iştirak edir. Bu göstərici Azərbaycanın adının qlobal neft sektorunda önəmli mövqedə olmasından xəbər verir: "Forumun məqsədi Xəzər və Mərkəzi Asiya regionunda karbohidrogen ehtiyatlarının emalı, satışı və ixracı məsələləri üzrə ən son tendensiyalar və inkişaf perspektivlərinin təhlil edilməsidir".

E.Qasımov əlavə edib ki, keçən illə müqayisədə bu il forumda iştirak edən ölkələrin sayında artım müşahidə olunub. Ümumilikdə, bu il foruma Azərbaycandan 72 nəfər, Rusiyadan 49 nəfər, Qazaxıstandan 32 nəfər, Böyük Britaniya, Almaniya, Fransa, İsveçrə, İtaliya, İspaniya, Avstriya, Polşa və digər Avropa ölkələrindən 53 nəfər, Birləşmiş Ərəb Əmirlikləri, İran, Türkmənistan, Özbəkistan və digər Asiya ölkələrindən 18 nəfər, Kolumbiya və Sinqapurdan isə 2 nəfər neft-qaz sektoru üzrə müəssisələrin rəhbər nümayəndələri qatılıb.

O, forumun keçirilməsinin çox gözəl bir vaxta təsadüf etdiyini vurğulayaraq, bir neçə gün əvvəl ölkə başçısı İlham Əliyevin seçkilərdə çox böyük səs çoxluğu ilə yenidən Azərbaycan Respublikasının Prezidenti seçildiyini qeyd edib, forum iştirakçıları adından bütün Azərbaycan xalqını təbrik edərək ölkəmizin daim çiçəklənməsini və inkişafını arzulayıb.

E.Qasımov Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu neft strategiyasının bütün dünyaya təbliğ olunmasında forumun səmərəli platforma olduğunu bildirib.

Sonra forumun iştirakçıları ulu öndər Heydər Əliyevin həyatından bəhs edən qısa filmi izləyərək onun əziz xatirəsini yad ediblər.

Azərbaycan energetika naziri Pərviz Şahbazov "Azəri-Çıraq-Günəşli" (AÇG), "Şahdəniz", Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəməri layihələrinin ölkəmizi dünyaya neft diyarı kimi tanıtdığını deyib. Bildirib ki, hazırda Azərbaycanın təşəbbüsü ilə dünyanın ən böyük qaz boru kəmərləri zənciri olan Cənub Qaz Dəhlizi reallaşdırılır. Bu dəhliz ilə Azərbaycan təbii qazı cari ildə Türkiyəyə, 2020-ci ildə isə Avropaya çatdırılacaq.

Nazir qeyd edib ki, bu vaxtadək Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" yataqlar blokundan 454 milyon ton xam neft və 144 milyard kubmetr təbii qaz hasil olunub. Azərbaycan indiyədək "Azəri-Çıraq-Günəşli" yataqlarının işlənməsindən 130 milyard 551 milyon ABŞ dolları gəlir əldə edib.

Milli Məclis sədrinin müavini Valeh Ələsgərov isə dövlət başçısı İlham Əliyevin bir çox sahələr kimi ölkə iqtisadiyyatının dayağı olan energetika sektorunda da qarşıdakı dövr üzrə mühüm vəzifələr müəyyənləşdirdiyini diqqətə çatdırıb.

SOCAR-ın birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadə qeyd edib ki, Prezident İlham Əliyevin strateji təlimatlarını rəhbər tutaraq Dövlət Neft Şirkəti bu gün bir çox ölkələrdə fəaliyyət göstərən, müxtəlif sahələrdə böyük layihələr həyata keçirən transmilli şirkətə çevrilib. SOCAR-ın Beynəlxalq Forumu xarici tərəfdaşlarla əlaqələrin daim diqqətdə saxlanılması və bununla beynəlxalq əməkdaşlıq bağlarının gücləndirilməsi üçün zəruri şərait yaradır.

X.Yusifzadə bildirib ki, Azərbaycan indiyədək "Azəri-Çıraq-Günəşli" yataqlarından 256 milyon ton mənfəət nefti əldə edib: "Artıq 19 ildir ki, "Azəri-Çıraq-Günəşli" layihəsinin iştirakçıları mənfəət neftindən gəlir əldə edirlər. 2018-ci il aprelin 1-dək dünya bazarında Azərbaycanın payına düşən 256 milyon ton mənfəət nefti satılıb. Bu da dünya bazarında realizə olunmuş bütün mənfəət neftinin 56,6 faizini təşkil edir".

SOCAR-ın rəsmisi deyib ki, bu vaxtadək AÇG layihəsinə 43 milyard dollar xərclənib.

BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli isə şirkətin ötən 25 il ərzində ölkəmizdəki fəaliyyətindən və həyata keçirdiyi irimiqyaslı layihələrdən danışıb. Bildirib ki, BP Azərbaycan, Gürcüstan və Türkiyə regionunda Xəzərdəki neft-qaz yataqlarının istismarına əsaslanan mühüm və çoxşaxəli biznes əməliyyatları həyata keçirir. Bunlar nəhəng ixrac sistemi vasitəsilə birbaşa yerli və beynəlxalq bazarlara birləşdirilib.

"İndiyədək Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz" qaz-kondensat yatağından 89 milyard kubmetrdən çox təbii qaz və 176 milyon barrel kondensat hasil edilib. İşlənmənin əvvəlindən bu vaxtadək "Azəri-Çıraq-Günəşli" yataqlar blokundan isə 3,3 milyard barrel neft hasil olunub. Azərbaycan AÇG və "Şahdəniz"in işlənməsindən indiyədək 132 milyard dollar gəlir əldə edib", - deyə o əlavə edib.

BP-nin rəsmisi bildirib ki, 2013-cü ildən bu zamana qədər 116 nəfər azərbaycanlı kadr xarici bazarlardan "BP Azerbaijan"a cəlb olunub. 2018-ci ildə "BP Azerbaijan" şirkəti kadr milliləşdirilməsini 90 faizə çatdıracaq.

Bakı Dövlət Universitetinin rektoru, akademik Abel Məhərrəmov, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru, professor Ədalət Muradov və başqaları çıxış edərək forumun əhəmiyyətindən danışıb, onun işinə uğurlar arzulayıblar.

Forum dünyanın 30 ölkəsindən olan 40-a yaxın məruzəçinin çıxışı ətrafında müəyyən mövzuları əhatə edib. Forumun ilk günündə dünya neft-qaz bazarı, Xəzər və Mərkəzi Asiya bazarı, nəqliyyat infrastrukturuna həsr olunub. İkinci günü neft emalı, neft və neft-kimya məhsullarının ticarəti, üçüncü günü isə neft-kimya bazarı, neftayırma zavodları və neft-kimya üçün texnologiyalara həsr edilib, sonuncu günü - aprelin 26-da isə müxtəlif ölkələrdən olan iştirakçılar üçün Heydər Əliyev adına Neft Emalı Zavodu və Sumqayıtda yerləşən neft-kimya kompleksinin müəssisələrinə texniki səfərlər təşkil edilib.

Tədbirdə iştirak edən müəssisələr arasında dövlət strukturları, neft-qaz şirkətləri (treyderlər, NEZ və neftçıxarma), neft-kimya müəssisələri, nəqliyyat şirkətləri (limanlar, terminallar, boru kəmərləri və ekspeditorlar), banklar, hüquq və konsaltinq şirkətləri və avadanlıq istehsalçıları, yeni texnologiyalar hazırlayan müəssisələr və universitetlər olub.

Forumda Azərbaycanın hökumət nümayəndələri ilə yanaşı, SOCAR və BP rəsmiləri, Qazaxıstan, Qırğızıstan, İran, Rusiya, Türkiyə və digər ölkələrin enerji nazirlikləri, eləcə də transmilli neft-qaz şirkətlərinin nümayəndələri, analitiklər, bank strukturlarının nümayəndələri iştirak edib.

Forumun 4 günlük proqramına əsasən aprelin 25-də "Xəzərin və Mərkəzi Asiyanın neft emalı və neft-kimyası – layihələrin həyata keçirilməsi və texniki həllər" adlı konfrans keçirilib.

Konfransda çıxış edəcək məruzəçilərə və iştirakçılara uğurlar arzu edən BANM-in rektoru Elmar Qasımov Bakı Ali Neft Məktəbinin SOCAR-ın III Beynəlxalq Forumuna və onun çərçivəsində keçirilən beynəlxalq konfransa ev sahibliyi etməsindən böyük sevinc hissi keçirdiyini qeyd edib.

Dörd sessiyadan ibarət olan konfransın ilk sessiyası "Azərbaycanın köhnə neft-kimya müəssisələrinin modernizasiyası ilə bağlı nəticələrin təhlili və yeni müəssisələrin işə salınması" haqqında məruzələrə həsr olunub. Bu sessiyada 3 məruzəçi – "SOCAR Karbamid" zavodunun direktoru Xəyal Cəfərov, "Azərikimya" İstehsalat Birliyinin investisiya və inkişaf üzrə icraçı direktorunun müavini Orxan Cəfərov və "SOCAR Methanol" MMC-nin baş direktoru Elnur Mustafayev çıxış ediblər.

"Xəzər bölgəsi ölkələrin neft-kimya istehsalı və neft emal zavodlarının texniki durumu və məhsulları"na həsr olunan ikinci sessiya və "Neft və qaz emalı sahəsində ən yeni texnologiyalar" adlı üçüncü sessiyanın hər birində 3 məruzəçi çıxış edib.

Konfransın dördüncü sessiyası isə 4 əcnəbi qonağın "Neft emalı zavodlarında yeni informasiya texnologiyalarının tətbiq olunması: İdarə olunmasının effektivliyinin artırılması" mövzusunu əhatə edən məruzələrindən ibarət olub.

SOCAR-ın III Beynəlxalq Forumu çərçivəsində həyata keçirilən "Xəzərin və Mərkəzi Asiyanın neft emalı və neft-kimyası – layihələrin həyata keçirilməsi və texniki həllər" adlı konfransda müxtəlif ölkələrdən 250-dən çox menecer və ekspert iştirak edib.

AXDG-NİN STRUKTURLARINDA "ÜMUMDÜNYA ƏMƏYİN MÜHAFİZƏSİ GÜNÜ"NƏ HƏSR OLUNMUŞ TƏDBİRLƏR KEÇİRİLİB

Beynəlxalq Əmək Təşkilatının (BƏT) müəyyənləşdirdiyi 28 aprel – "Ümumdünya Əməyin Mühafizəsi Günü" ilə əlaqədar "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin strukturlarında xüsusi tədbirlər keçirilib.

İstehsalat Xidmətləri İdarəsi, "Dənizçi Təmir Tikinti" MMC-də Ümumdünya Əməyin Mühafizəsi Gününə həsr olunmuş tədbirlərdə günün əhəmiyyət ilə bağlı əməkdaşlara geniş məlumat verilib. Bildirilib ki, bu günün qeyd olunması 2003-cü ildən başlayıb. Həmin vaxt Beynəlxalq Əmək Təşkilatı onu əməyin mühafizəsi, gigiyenası və mədəniyyəti konsepsiyasının formalaşdırılması və müdafiəsi kimi nəzərdə tutub. "Ümumdünya Əməyin Mühafizəsi Günü" əməyin mühafizəsi üzrə profilaktik tədbirlərdən ibarət olub iş yerində bədbəxt hadisələrin və işçilərin səhhətinin pisləşməsinin qarşısının alınması probleminə həsr olunub.

"Bibiheybət" Gəmi Təmiri Zavodunda Əməyin mühafizəsi, təhlükəsizlik texnikası və ətraf mühitin mühafizəsi şöbəsinin işçiləri tərəfindən keçirilən tədbir müəssisənin bütün bölmə və sahələrini əhatə edib. Tədbirdə baş mühəndis İlham Cavadov, ƏMTT və ƏMM şöbəsinin rəisi Dair Məlikov, ƏMTT üzrə mühəndis Elşən Məmmədov, ƏMTT və ƏMM şöbəsinin mütəxəssisi Vasif Lətifov, zavodun MTİ işçiləri, bölmə, sahə rəisləri və ustaları iştirak ediblər.

Bölmələrdə işçilərə əməyin mühafizəsinə dair məlumatların toplanması və istifadəsi üsulları barədə ətraflı məlumat verilib, həmçinin əməyin mühafizəsi və təhlükəsizlik texnikası qaydalarına riayət edilməsinin vacib olduğu bildirilib.

Şöbə, bölmə, sahə rəislərinə və SƏTƏMM şöbəsinə isə tapşırılıb ki, istehsalatda bədbəxt hadisələrin baş verməsinin qarşısının alınması, işçilərə sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması, əməyin mühafizəsi və təhlükəsizlik texnikası qaydalarına əməl olunmasına nəzarət olunsun.

Ümumiyyətlə, "Ümumdünya Əməyin Mühafizəsi Günü"nün keçirilməsi ideyası ilk dəfə 1989-cu ildə Amerika və Kanada zəhmətkeşləri tərəfindən irəli sürülüb. Onlar təklif ediblər ki, "28 aprel" – iş yerlərində həlak olan və zərər çəkmiş işçilərin "Xatirə günü" kimi qeyd olunsun. Azad Həmkarlar İttifaqlarının Beynəlxalq Konfederasiyası iş yerlərində səmərəli əmək şəraitinin təşkilinə diqqəti daha da cəlb etmək üçün onun əhatə dairəsini genişləndirməklə həmin günü Ümumdünya tədbiri günü kimi qeyd edirlər.

ÇİKAQODA AZƏRBAYCANIN İPƏK YOLUNDA MƏRKƏZİ ROLU QEYD EDİLİB

ABŞ-ın əsas siyasi və biznes mərkəzlərindən biri olan Çikaqo şəhərində 2018-ci il üzrə İpək Yolu həftəsi çərçivəsində beynəlxalq konfrans keçirilib.

Konfransa tarixi İpək Yolunda yerləşən region və dövlətlərin rəsmiləri, həmçinin biznes sektorunun təmsilçiləri dəvət olunub və onlar tərəfindən Çindən Avropaya doğru uzanan bu yolun bərpası məqsədilə görülər tədbirlər barədə təqdimatlar verilib. Tədbirdə Azərbaycanla yanaşı, Çin, Pakistan, İndoneziya, Özbəkistan, Qazaxıstan və Türkiyəni təmsil edən nümayəndələr, həmçinin bir sıra dövlətlərin Çikaqoda yerləşən konsulluq təmsilçiləri, ABŞ-ın mərkəz-qərb regionun digər şəhərlərində fəaliyyət göstərən və biznes əlaqələrinin inkişafı ilə maraqlanan şirkət nümayəndələri iştirak ediblər.

Konfransda ölkəmiz Azərbaycanın ABŞ-dakı səfirliyi tərəfindən təmsil olunub. Səfirliyin əməkdaşı Azad Aslanov tədbirdə çıxış edərək iştirakçılara ölkəmizin bu yolun bərpasına verdiyi töhfələr, həyata keçirdiyi irimiqyaslı enerji və nəqliyyat layihələri, həmçinin qeyri-neft sektorunun inkişafı üzrə aparılan ardıcıl tədbirlər və biznes əlaqələrinin inkişafı üzrə mövcud imkanlar barədə məlumat verib. Xüsusən ötən ilin sonunda Bakı-Tbilisi-Qars dəmiryolu layihəsinin açılışı, Cənub Qaz Dəhlizinin tikintisi üzrə əldə olunan uğurlar barədə danışılıb və bu kimi layihələrin iqtisadi faydaları ilə yanaşı, regionlararası əlaqələrin və mədəniyyət ənənələrinin gücləndirilməsi baxımından əhəmiyyəti qeyd olunub. Eyni zamanda, regionda olan münaqişələrin, xüsusən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sabitliyə, inkişafa və rifaha yaratdığı təhdidlər göstərilib.

Tədbirdə çıxışlarda Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən layihələrin əhəmiyyəti vurğulanıb, bir sıra şirkətlərin nümayəndələri ölkəmizdə biznes imkanları və turistik səfərlər ilə maraqlanıb.

Tədbir Şimali İllinoys Universitetinin Biznes Kollecinin dəstəyi ilə Mərkəzi Asiya Məhsuldarlığın Araşdırılması Mərkəzi tərəfindən təşkil edilib. Həmçinin, konfransın dəstəkləyici təşkilatları qismində ABŞ-Azərbaycan Ticarət Palatası, "SME Group" şirkəti, "Tianjin İqtisadi Texnoloji İnkişaf Sahəsi", Türkiyənin Hacıtəpə Universitetinin Biznes Kolleci, "ABŞ-Qazaxıstan Biznes Assosiasiyası" və digərləri çıxış edib.

Yusif Babanlı

BEYNƏLXALQ LİMANLAR ASSOSİASİYASININ ÜZVLƏRİ DÜNYA DƏNİZ TİCARƏTİNİN 60 FAİZİNDƏN ÇOXUNU HƏYATA KEÇİRİR

İndoneziya Liman Korporasiyası və Avstraliya Yeni Cənubi Uels Limanı İdarəsinin rəhbərləri Bakıya gəlir.

Bu barədə "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC məlumat yayıb.

Bildirilib ki, İndoneziya Liman Korporasiyasının direktoru Elvin Q. Masassaya və Avstraliya Yeni Cənubi Uels Limanı İdarəsinin təsisçisi və direktoru Qrant Qilfillanın Bakıya səfərinin məqsədi mayın 8-11-də keçiriləcək "Gələcəyin limanları: qovşaqlar yaratmaqla, qarşılıqlı əməkdaşlığın gücləndirilməsi" mövzusuna həsr olunan Beynəlxalq Limanlar Assosiasiyasının (IAPH) konfransında iştirak etməkdir. Liman rəhbərləri konfransın açılış mərasimində çıxış edəcəklər.

Xatırladaq ki, Beynəlxalq Limanlar Assosiasiyası (IAPH) 90 ölkədə 180-ə yaxın liman və limanlarla əlaqəsi olan 140 müəssisəni təmsil edir. Təşkilatın üzvləri dünya dəniz ticarətinin 60 faizindən çoxunu həyata keçirir və beynəlxalq konteyner marşrutlarının 80 faizinə nəzarət edir. IAPH hər il iri liman şəhərlərində konfranslar keçirir. Los-Anceles (2013), Sidney (2014), Hamburq (2015), Panama (2016) və Bali (2017) bundan əvvəlki konfranslara ev sahibliyi ediblər.

"IAPH Baku 2018"in iştirakçıları "Bir Kəmər – Bir Yol" təşəbbüsü çərçivəsində nəqliyyat dəhlizlərinin yaradılması, azad ticarət zonalarının milli iqtisadiyyata və qonşu ölkələrin iqtisadiyyatına töhfəsi və XXI əsrdə "Smart-Ports" və "Yaşıl limanlar" konsepsiyası kimi mühüm və maraqlı mövzuların müzakirəsi üçün unikal imkan əldə edəcəklər.

UTECA TƏLƏBƏLƏRİ BAKI LİMANI İLƏ TANIŞ OLUBLAR

Azərbaycan Texnologiya Universitetinin (UTECA) tələbələrindən ibarət "Port of Baku" komandası Bakı Beynəlxalq Dəniz Ticarət Limanına səfər edib. On nəfərdən ibarət komanda üzvləri tədris şöbəsinin müdiri Piri Axundov və logistika təlim-tədris mərkəzinin müdiri Əsgər Babazadənin rəhbərliyi ilə limanın rəhbər şəxsləri ilə görüşüb, anbar və terminallarda iş prosesi ilə tanış olublar.

Əvvəlcə iclas otağında limanın məsul işçiləri tələbələr qarşısında təqdimatla çıxış ediblər. Paytaxtın Qaradağ rayonunun Ələt qəsəbəsində yaradılan Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksi və yeni istifadəyə verilmiş Ro-Ro terminalı barədə qonaqlara ətraflı məlumat verilib. Limanın istismar xidmətinin rəisi Yucin Seah və digər struktur rəhbərləri qeyd ediblər ki, təsdiqlənmiş baş plana əsasən, yeni liman kompleksinin birinci fazası 12 yanalma körpüsünə malik olmaqla, yükaşırma imkanı illik 15 milyon ton yük, 100 min ədəd konteyner təşkil edir. Ümumilikdə, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksi ölkənin tranzit imkanlarının genişləndirilməsində həlledici və mühüm rola malikdir.

Limanın istehsalat ərazisi ilə tanışlıq zamanı tələbələrə yük aşırmaları, yüklərin istismar qaydaları və daşınma qurğuları, avadanlıqlar, anbarlar barədə geniş məlumat verilib. Gələcəyin logistika mühəndislərini maraqlandıran suallara limanın mütəxəssisləri tərəfindən ətraflı izahat gətirilib.

Qeyd edək ki, "Bakı Beynəlxalq Dəniz Ticarəti Limanı" QSC və Azərbaycan Texnologiya Universiteti (UTECA) arasında imzalanmış memorandum mütəxəssis hazırlığının bir sıra başqa istiqamətləri üzrə əməkdaşlığı da nəzərdə tutur.

"CASPİAN OİL AND GAS" REGİONUN NEFT SEKTORUNDA ƏLDƏ OLUNAN NAİLİYYƏTLƏRİN VİZİT KARTIDIR

Bu il Xəzər Neft və Qaz "Caspian Oil and Gas" sərgi və konfransı öz mötəbər yubileyini – uğurlu fəaliyyətinin 25-ci ildönümünü qeyd edir. Gəlin keçmişə nəzər salaraq bütün bunların necə başlandığını və hansı uğurlara nail olduğunu xatırlayaq.

"Iteca Caspian" şirkəti xəbər verir ki, "Caspian Oil and Gas" sərgisi 1994-cü ilin sentyabr ayında Xəzər hövzəsinin karbohidrogen yataqlarının genişmiqyaslı işlənilməsi üzrə yeni istiqamətləri müəyyən edən və respublikanın neft tarixində yeni dövrün əsasını qoymuş "Əsrin müqaviləsi"nin imzalanması ərəfəsində təsis edilib və "Caspian Oil and Gas" sərgisinin tarixi də məhz o vaxtdan başlayır. Həmin dövrdə ümummilli lider Heydər Əliyev Azərbaycanda neft-qaz sənayesi üzrə ilk ixtisaslaşdırılmış sərginin keçirilməsi təşəbbüsünü dəstəkləyib və o vaxtdan etibarən "Caspian Oil and Gas" sərgisi neft, qaz və energetika sahəsinin aparıcı mütəxəssislərinin görüşdüyü və memorandumların, habelə gələcək əməkdaşlığa dair saziş və müqavilələrin imzalandığı meydançaya çevrilib.

Keçirildiyi ilk gündən Heydər Əliyev adına İdman və Konsert Kompleksində dünyanın 12 ölkəsindən neft-qaz və energetika sektorunun 158 aparıcı şirkətini bir araya toplayan bu sərgi və konfrans yüksək göstəriciyə imza atıb.

Sərginin iştirakçıları və sponsorları arasında dünya neft və energetika sektorunun aparıcı şirkətləri, o cümlədən BP, "OMV", "Conoco Phillips", "Statoil", "Total", "Petkim", "TPAO", "RWE" və bir sıra digər şirkətlər var. Sərgi Azərbaycanın neft-qaz sahəsində fəaliyyət göstərən şirkətlər üçün xarici şirkətlərlə əməkdaşlıq etmək və yeni texnologiyaları yerli istehsal prosesində, eləcə də karbohidrogen ehtiyatlarının hasilatında tətbiq etmək üçün geniş imkanlar açıb.

Sərginin yüksək statusunu ulu öndər Heydər Əliyevin açılış mərasimində iştirak etməsi təsdiqləyirdi və bu gün, bu ənənə Prezident İlham Əliyev tərəfindən davam etdirilir. Müxtəlif ölkələrin liderləri, o cümlədən Böyük Britaniya, Türkiyə və Norveçin baş nazirləri, ABŞ, Fransa və Gürcüstanın prezidentləri, habelə Avropa İttifaqının prezidenti növbəti sərgi və konfransın açılışı münasibətilə Azərbaycan Respublikasının rəhbərinə öz salamlama məktublarını göndərirlər. Azərbaycan Respublikası Energetika Nazirliyi və SOCAR isə bu sərginin inkişafı naminə öz əvəzsiz töhfələrini əsirgəmirlər.

Sərgini müşayiət edən işgüzar proqramın mühüm tərkib hissəsini isə hər il dünyanın 30-dan çox ölkəsindən 500-dən artıq nümayəndə heyətinin iştirak etdiyi "Caspian Oil and Gas" konfransı təşkil edir. Bu 25 il ərzində sözügedən konfrans Azərbaycanın zəngin neft-qaz və tranzit potensialının, o cümlədən ölkənin xarici investorlar üçün cəlbedici olmasının və işgüzar əməkdaşlıq imkanlarının müzakirə edildiyi əsas tribunaya çevrilib.

İlk Xəzər Neft və Qaz "Caspian Oil and Gas" sərgisi keçirilən zaman infrastruktur hələ inkişaf etməmişdi və bütün sərgi avadanlıqları xaricdən gətirilirdi. İnternet demək olar ki, yox idi, mobil rabitə yenicə yaranırdı, müştərilərlə əlaqə isə faks vasitəsilə həyata keçirilirdi. İlk sərgilərin planları kağız üzərində çəkilirdi, amma indi isə bunu təsəvvür etmək, sadəcə, qeyri-mümkündür. Lakin Azərbaycan bazarı sürətlə inkişaf edirdi və onunla birlikdə sərgi də sürətlə böyüyürdü. Belə ki, ötən illər ərzində sərgi regionda neft-qaz sənayesinin əsas tədbiri kimi formalaşıb və indi burada neft-qaz bazarının əsas oyunçuları iştirak edirlər.

2005-ci ildən etibarən "Daily News" rəsmi qəzeti sərgi və konfransın işini işıqlandırır. Bu qəzetin hər bir buraxılışı "Caspian Oil and Gas" sərgisinin həm iştirakçıları, həm də nümayəndə heyətləri üçün önəmli bir hadisəyə çevrilir. Belə ki, "Daily News" qəzeti öz səhifələrində sərginin, eləcə də Azərbaycanda və ümumilikdə Xəzəryanı regionda neft-qaz sənayesinin inkişafında iştirak etmiş, hazırda da iştirak edən şirkət və şəxslərin tarixini əks etdirir.

"Caspian Oil and Gas" sərgisi, həmçinin dünya sərgi sənayesində də beynəlxalq nüfuz qazana bilib. Belə ki, 2006-cı ildə Azərbaycanda ilk ixtisaslaşdırılmış tədbir - "Caspian Oil and Gas" sərgisi müvafiq standartlara cavab verdiyi üçün Ümumdünya Sərgi Sənayesi Assosiasiyası (UFI) tərəfindən təqdir olunub.

Artıq 2010-cu ildən etibarən "Caspian Oil and Gas" sərgisi beynəlxalq sərgi kompleksi olan Bakı Ekspo Mərkəzində keçirilir. Həmin vaxta qədər isə sərgi uzun müddət sərgi iştirakçıları üçün qonaqpərvər ev olan Heydər Əliyev adına İdman və Sərgi Kompleksində keçirilirdi.

Beləliklə, sərgi uzun bir inkişaf yolu keçib və öz unikallığı sayəsində 25 ildir ki, aparıcı tədbir statusunu qoruyub saxlayır. Sərgi və konfransın hər yubileyi bir növ "Caspian Oil and Gas" fondunu təşkil edən xüsusi tədbirlərlə müşayiət olunur. Bu fondun aydın sosial istiqaməti var. Belə ki, müxtəlif yubiley illərində "Caspian Oil and Gas" sərgi və konfransda ölkənin ixtisaslaşmış universitetlərinə qəbul zamanı yüksək bal toplayan tələbələr həvəsləndirilib, sərgi və konfrans iştirakçıları ağac və güllər əkib, incəsənət dəstəklənib. Bəstəkar Tofiq Bakıxanovun əfsanəvi "Xəzər balladası" baletinin səhnələşdirilməsinə sponsorluq, rəssam Sabir Çopuroğlunun neftlə çəkilmiş rəsm ekspozisiyasının təşkili bu sadalananlara misal göstərilə bilər.

Bu il "Caspian Oil and Gas" sərgisinin yubileyi bir neçə əhəmiyyətli tarixə təsadüf edir, belə ki, sərginin keçirildiyi ilk gündən bu tədbiri dəstəkləmiş və onun təşəbbüskarı olmuş ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi keçirilir. Həmçinin bu il ölkədə Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) 100 illik yubileyi qeyd edilir. Bu əlamətdar hadisələr sərgi proqramında öz əksini tapacaq.

Sərginin ildönümü ilə əlaqədar olaraq müxtəlif verilişlər hazırlanacaq və sosial şəbəkələrdə bir-birindən fərqli müsabiqələr keçiriləcək. Həmçinin yubiley ilə bağlı xüsusi videolar çəkiləcək. Tədbirin keçirildiyi günlərdə isə sərgi və konfrans iştirakçılarını bir sıra maraqlı hadisələr gözləyir.

Beləliklə, bu gün haqlı olaraq "Caspian Oil and Gas" sərgisini əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən milli neft strategiyasının təntənəsi adlandırmaq olar. Təşkilatçılar əmindirlər ki, 25 illik bir dövrü arxada qoymuş bu sərgi regionun neft sektorunda əldə olunan nailiyyətlərin vizit kartı, habelə işgüzar əlaqələr və qarşılıqlı əməkdaşlıq üçün yeni perspektivlər yaradan platforma olaraq qalacaq.

CƏNUBİ ÇİN DƏNİZİNDƏ AVSTRALİYA VƏ ÇİN GƏMİLƏRİNİN QARŞIDURMASI BAŞ VERİB

Cənubi Çin dənizində Çin gəmiləri Avstraliya hərbi-dəniz qüvvələrinin üç gəmisi ilə qarşı-qarşıya gəlib.

Bu barədə ABC telekanalı Kanberradakı rəsmi mənbələrə istinadla məlumat yayıb.

Məlumatda qeyd edilir ki, cari ayın əvvəllərində Xoşiminə (Vyetnam) gedən Avstraliya gəmilərindən ibarət qrup Çin gəmiləri ilə qarşı-qarşıya gəlib. Telekanalın bildirdiyinə görə, görüş nəzakətli olduğu qədər də çətin keçib. Avstraliya Müdafiə Nazirliyinin nümayəndələri hadisənin incəliklərini açıqlamaqdan imtina ediblər.

Avstraliyanın Baş naziri Malkolm Ternbull telekanalın məlumatını təsdiq və ya inkar etməkdən imtina edib. Bununla yanaşı, o bildirib ki, "Avstraliya bütün dünyada azad gəmiçilik və uçuşlar praktikasını dəstəkləyir və bu kontekstdə onun ölkəsinin gəmiləri dünya okeanında, o cümlədən Cənubi Çin dənizində beynəlxalq qanunlara müvafiq olaraq hərəkət etmək hüququna malikdirlər".

Xatırladaq ki, Çinin regionun bir sıra ölkələri, o cümlədən Vyetnam, Bruney, Malayziya, Filippin və İndoneziya ilə bəzi adaların mənsubiyyəti barədə mübahisələrinin davam etməsi Cənubi Çin dənizində vəziyyəti gərginləşdirir. Avstraliyanın rəsmi nümayəndələri dəfələrlə bəyan ediblər ki, bu ölkə Cənubi Çin dənizi akvatoriyasındakı adalarla bağlı heç bir ərazi iddiasında deyil, azad gəmiçiliyə və uçuşlara qarşı yönələn və regionda mövcud status-kvonun dəyişməsinə xidmət edən birtərəfli hərəkətləri isə pisləyir.

Vüqar Ağayev

"ACSC LOGİSTİCS" MMC "TRANSRUSSİA-2018" SƏRGİSİNDƏ İŞTİRAK EDİB



"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin tərkibinə daxil olan "ACSC Logistics" MMC Rusiyanın paytaxtı Moskvada baş tutan 23-cü Beynəlxalq yükdaşımaları, nəqliyyat və logistika – TransRusiya (TransRussia/Trans-Logistica 2018) sərgisinə qatılıb.

26 ölkədən 390-dan çox şirkətin iştirak etdiyi sərgidə "ACSC Logistics" MMC-nin stendinə xüsusi maraq göstərilib. Xidmətlər barədə maraqlı şəxslər məlumatlandırılıb, iştirakçılara xüsusi bukletlər paylanıb.

Şirkətinin nümayəndələri sərgi çərçivəsində potensial müştərilərlə də bir sıra məhsuldar görüşlər keçiriblər.

Xatırladaq ki, "ACSC Logistics" MMC həm ölkə daxilində, həm də xaricdə nəqliyyat və logistika xidmətləri göstərir. Şirkətin əsas məqsədi Avropa ilə Asiya arasındakı ən qısa marşrut kimi qədim İpək Yolu, xüsusilə Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin tam istifadəsini təşviq etmək, bu istiqamətdə əlavə yük daşıma imkanlarını araşdırmaq və həyata keçirməkdən ibarətdir.

Şirkət fəaliyyətini "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin qoyduğu ənənələr əsasında həyata keçirir. Belə ki, "ACSC Logistics" MMC şəffaf və aydın tarif siyasəti, innovativ iş üsullarından istifadə, əlavə xərcləri aradan qaldırmaq üçün qabaqlayıcı tədbirlərin görülməsi, yaranmış problemlərin həllində sürətlilik, müqavilələrə uyğun vəzifələrin peşəkarcasına və vaxtında yerinə yetirilməsi kimi vacib prinsiplərlə işləyir.

"ACSC Logistics" MMC-nin xidmət dairəsi genişdir. Şirkət müştərilərinə yüklərin daşınması üçün ən optimal marşrut seçimi, təhlükəli və iri həcmli yüklər və onların daşınma şərtləri barədə tövsiyələr verir, yüklərin Xəzər dənizi, Qara dəniz, Azərbaycan, Gürcüstan, Qazaxıstan, Türkmənistan, Özbəkistan, MDB və Baltik ölkələrinin həm dəmir, həm də dəniz yolları ilə daşınmasını həyata keçirir. Bundan başqa, daşıma zamanı tələb olunan sənədləşmə və müşayiət xidmətlərinin, o cümlədən gömrük rəsmiləşdirilməsi, sığorta, gəmi agenti, nəqliyyat, ekspedisiya və digər xidmətlərin göstərilməsini də təşkil və təmin edir.

ƏMLAK ÇIXARIŞLARININ VERİLMƏ MÜDDƏTİ AZALDILIB

Azərbaycanda daşınmaz əmlakın qeydiyyatı sahəsində mühüm yenilik baş verib. Əmlak çıxarışlarının verilmə müddəti azaldılıb.



Əmlak Məsələləri Dövlət Komitəsindən bildiriblər ki, artıq vətəndaşlar əmlakları üzərində mülkiyyət hüququnu təsdiqləyən çıxarışı 1 iş günü müddətində ala biləcəklər. Bununla bağlı Nazirlər Kabineti "Daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı üçün sənədlərin qəbulu, yoxlanılması və verilməsinin prosedur Qaydaları"na dəyişikliklər edib. Qaydaya "Ərizənin sürətləndirilməklə icra edilməsi" başlıqlı yeni hissə əlavə edilib. Dəyişikliyə əsasən vətəndaşların təqdim etdikləri ərizə onların istəyi əsasında daha sürətlə icra ediləcək. Nəticədə vətəndaşlar daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatını təsdiqləyən çıxarışları 1 gün, 3 gün və 7 iş günü müddətində ala biləcəklər. Qeydiyyat prosesi zamanı mərzçəkmə və inventarlaşdırma işlərinin aparılmasına ehtiyac yaranarsa, ərizələr 2 gün, 5 gün və 10 iş günü müddətində icra ediləcək. İpotekanın dövlət qeydiyyatı ilə bağlı ərizələr isə bir və iki iş günü müddətində icra olunacaq. Daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatına dair ərizənin sürətləndirilməklə icrası zamanı Əmlak Məsələləri Dövlət Komitəsinin göstərdiyi xidmətlərə görə xidmət haqlarının tarifləri Tarif (qiymət) Şurası tərəfindən müəyyən edilən əmsallarla hesablanacaq.

Əmlakın qeydiyyatının sürətləndirilməsində məqsəd vətəndaşlara daha operativ xidmət göstərilməsi, xidmətlərdə məmnunluğun yüksəldilməsi, eyni zamanda çevikliyin və rahatlığın artırılmasıdır. Qaydalarda edilən dəyişikliklər və onların icrası daşınmaz əmlakın qeydiyyatı sahəsində prosedurların sadələşdirilməsi və burada tətbiq edilən texnoloji yeniliklər sayəsində mümkün olub.

Əmlak çıxarışlarının daha sürətli verilməsi müasir həyatımızın əsas çağırışlarından olan sürətli proseslərə və biznes əməliyyatlarına tələbatın ödənilməsinə imkan verəcək. Belə ki, bu yenilik daşınmaz əmlakın qeydiyyatı sahəsində xidmətlərin keyfiyyətinin və səmərəliliyinin artmasına, daha çox insanın rahatlıqla mülkiyyət üzərində hüquq sahibi olmasına şərait yaradır. Bu isə daşınmaz əmlak bazarının aktivləşməsinə, iqtisadi əməliyyatların, o cümlədən alqı-satqı, ipoteka əməliyyatların aparılmasını sürətləndirəcək.

Qeyd edək ki, əmlak çıxarışlarının bir gün ərzində verilməsi əmlakın qeydiyyatı sahəsində ilk yenilik deyil. Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən bu prosesdə davamlı yeniliklərin tətbiqi, innovasiyalardan geniş istifadə olunması nəticəsində hazırda vətəndaşlar çıxarışlarını elektron şəkildə də ala bilərlər. Bir gündə verilməsinə baxmayaraq çıxarışlar vətəndaşlara onların istəyi əsasında elektron şəkildə də təqdim olunur.

Elektron çıxarış sisteminin tətbiqi qeydiyyat prosesinin tam olaraq avtomatlaşdırılmasına imkan verir. Daşınmaz əmlakın dövlət reyestrindən elektron imza ilə təsdiqlənən çıxarış Elektron Hökumət Portalında yerləşdirilir və portal vasitəsilə hüquq sahibi tərəfindən elektron üsulla əldə edilir. Həmçinin daşınmaz əmlakın dövlət reyestrindən kağız formada təqdim olunan çıxarışda göstərilən məlumatlar elektron çıxarışda da əks olunur.

Sistemin istifadəsi ilk növbədə daşınmaz əmlakın qeydiyyatı prosesində vətəndaş-məmur ünsiyyətini minimuma endirir, əhalinin əmlaklarının qeydiyyatını daha da sadələşdirməklə bu sahədə operativlik və şəffaflığı artırır. Bundan əlavə, kağız çıxarışın itirilməsi, yararsız hala düşməsi ilə bağlı problemlər ortadan qalxır. Kağız çıxarışın başqa insanlar tərəfindən saxtalaşdırılması və qanunsuz istifadə edilməsi halı tam istisna edilir.

Əmlak Məsələləri Dövlət Komitəsi daşınmaz əmlakın qeydiyyatı sahəsində əldə edilən göstəricilərin müsbət dinamika ilə irəliləməsi, idarəetmədə vətəndaş-məmur münasibətinin minimuma endirilməsi, eləcə də ictimai xidmətlərdən əhalinin daha rahat və çevik qaydada faydalanması istiqamətində məqsədyönlü tədbirlərini davam etdirəcək.

İKİ QAYIĞIN TOQQUŞMASI NƏTİCƏSİNDƏ 17 NƏFƏR HƏLAK OLUB

Çinin cənubundakı Quansi Cuan muxtar rayonunda çayda iki "əjdaha" qayığının toqquşması nəticəsində ölənlərin sayı 17 nəfərə çatıb. Bu barədə "Sinxua" agentliyi yerli hakimiyyət orqanlarına istinadla məlumat yayıb.

Hadisə aprelin 21-də Taoxuacian çayında ənənəvi Çin "Əjdaha qayıq"larının yay bayramına hazırlığı zamanı baş verib. Qəza baş verəndə iki qayıqda, ümumilikdə, 57 nəfər olub. Köməyə gələnlər 40 nəfəri sudan çıxara biliblər.

KURİL ADALARI RAYONUNDA KEÇİRİLƏN TƏLİMLƏRƏ GÖRƏ RUSİYAYA ETİRAZ BİLDİRİLİB

Yaponiya Kuril adaları rayonunda yerləşən şərqi hərbi dairənin tədris-təlim kompleks-lərində aparılan yoxlamalar çərçivəsində aviasiya və Sakit okean donanması gəmilərinin iştirakı ilə keçirilən irimiqyaslı təlimlərə görə Rusiyaya etirazını bildirib.

Bu barədə aprelin 19-da Tokioda keçirilən mətbuat konfransında Yaponiya Nazirlər Kabinetinin baş katibi Yoşihide Suqa bəyan edib.

Baş katib deyib: "Bu dörd adada Rusiyanın hərbi iştirakının güclənməsi bizim mövqeyimizlə düz gəlmədiyinə görə, diplomatik kanallar vasitəsilə etirazımızı bildirmişik. Məsələnin tam həlli üçün biz ilk növbədə bu adaların ərazi mənsubiyyətini həll etməliyik".

NHK telekanalının bildirdiyinə görə, 2,5 min heyət üzvünün qatıldığı təlimlərdə 800-dək hərbi texnikadan istifadə olunur. Təlimlərin əsas fərqli cəhəti dəniz üzərindəki obyektlərə döyüş atəşinin açılması və PUA-lardan istifadə olunmasıdır.

Vüqar Ağayev

SU ALTINDA İŞLƏYƏN ROBOT

ABŞ alimləri su altında işləmək üçün robot ixtira ediblər. "SwarmDiver" adlı robot su anbarlarının monitorinqi üçün nəzərdə tutulub. Kompleks suyun altında 50 metrə qədər dərinlikdə əmrləri yerinə yetirir. Robot kənd təsərrüfatında, həmçinin müdafiə məqsədilə tətbiq edilə bilər.

Belta.by saytı xəbər verir ki, sistemi suya həm sahildən, həm də gəmi vasitəsilə salmaq mümkündür.

"SwarmDiver"in hər bir elementi 74 santimetr uzunluğa və iki motora malikdir. Robot saniyədə 2,2 metr sürət toplaya, həmçinin suya enə bilər. Akkumulyatorun həcmi su altında 2,5 saat işləməyə, yeddi kilometr məsafə qət etməyə imkan verir.

ALİMLƏR BUZLAQLARI "QAR TOPLARI" İLƏ QORUMAĞI TƏKLİF EDİRLƏR

Qlobal istiləşmə ilə əlaqədar olaraq İsveçrədəki Alp buzlaqları tədricən əriməyə başlayıb. Buzlaqların tamamilə əriməsi yaşayış məntəqələrində dağ gölləri və quyuların quruması ilə nəticələnə bilər.

"Nauka i jizn" jurnalı xəbər verir ki, Niderlandın Utrexta Universitetinin bir qrup alimi İsveçrənin cənub-şərqində o qədər də böyük olmayan buz dağlarını qorumağı təklif edir. Bunun üçün onlar yayda əriyən xizək yollarının bərpası üçün istifadə edilən "qar topları" ilə buzlaqları atəşə tutmağı məsləhət görürlər.

Alimlərin fikrincə, qalınlığı bir neçə santimetr olan süni qar örtüyü günəş istiliyini əks etdirmir və buzu əriməkdən qoruyur. Layihə hələlik maliyyə mənbəyini tapmayıb. Bu, baş tutacağı təqdirdə 4 min "qar topu" tələb olunacaq.

YARIZARAFAT, YARIGERÇƏK

Göstərməyə heç nə olmayanda bəziləri özlərini daha çox işgüzar adam kimi göstərirlər.

Mənim heç nəyim çox deyil. Xüsusən də vaxtım.

XXI əsrə quldarlıq dövrünün adamları hardan düşüb?

Bəziləri niyə həqiqətdən lap cin-şeytandan qorxduqları kimi qorxurlar?

Cahilliyini dərk etməyənlər, onu ört-basdır edənlərdən daha səmimidirlər.

Axmaqların əhatəsində o qədər ağıllı görünmək istəyən var ki...

Görmək istəmədiyim adamları axirətdə də görəcəyəmsə, deməli cəhənnəm var.

Hamı tanış axtarır. Allahdan böyük tanış?

Gələnlər əvvəlcə onlara kömək etmək üçün boyunlarını bükürlər. Boyunları yekələnəndən sonra boyunlarınızı bükmək istəyirlər.

Mənə elə gəlir ki, ən böyük günah atın cilovunu uzunqulağın quyruğuna bağlamaqdır.

Mən həqiqətdən, yalançılar yalandan yapışdılar, dartdılar, dartdılar və çox vaxt məni özümdən çıxartdılar.

Bəzən hər şeyi olan adamların dediklərində niyə zərrəcə həqiqət olmur?

Yalan yalan gətirir.

Yalanın bir başı, qırx ayağı və min dayağı olur.

Hər oxumayandan müğənni necə çıxır?

Mənə ağıl verənlərin verməyə başqa heç nəyi yoxdur?

Saqqal saxlamayan aşağı baxmamalıdır?

Hər ağızdan uzağı neçə avaz gələ bilər?

Hətta xaş yeyəndə də baş yeməyin əleyhinəyəm.

Dünyanın işinə bax e... öz başını yeyir.

Əvvəllər at oynadanlar indi təkcə at oynatmırlar.

Gör nə qədər adam düz adama oxşayır. Çaşıb qalırsan?

Allah ehtimal etmir.

Qaba tökülən hər su içməli hesab ediləndən qablarımız da pis gündədir.

Hər gözü yaxşı görən bir az da uzaqgörən olsaydı, nə dərd.

Bir ümidim Allaha idi, deyirlər o da bəndəsinin mükafatını o dünyada verir.

Nəyin düz olduğunu bilməyən nəyi düz edə bilər?

Ağıllı qadın bir ailənin, ağıllı kişi cəmiyyətin bəzəyidir.

Nəyə bürünürsən bürün, sürünmək yaxşı deyil.

Siz tərəflərdə bir barışdırana orta hesabla neçə araqarışdıran düşür?

Ət yeməyi xoşlamayan da arabir şir ürəyi yeməlidir.

Özün ola bilmədiyin vaxtlarda da kiməsə oxşama.

Az işləyən çox danışar.

Ən kasıb, yaxşılıq etməyi bacarmayandır.

İşsizlikdən çətin iş yoxdur.

Pul ölçü vahididir? Niyə hər şeyi pulla ölçürlər?

Xam xəyallara qapılmadığım üçün heç kimdən yaxşılıq gözləmirəm.

Ağız var açmaq çətindir, ağız var bağlamaq.

Yavan ye, amma yalan demə.

Kiçik yaxşılığa belə gücü çatmayan hər cür pislik etməyə gücü hardan alır?

Ən çox güclülərlə savaşdım. Və həmişə də, mən haqlı, onlar isə güclü olduqlarını sübut etməyə çalışdılar.

Adamlığı olmayanı adam yerinə qoy, amma hansı adamınsa yerinə qoyma.

Elə şeyin arxasınca qaçmayın ki, sonra kimlərsə sizi tutanadək arxanızca qaçsınlar.

Satqınlıq bəzilərinin alnına yazılıb?

Niyə bəzi yerlərdə üz ağardana daha çox göz ağardırlar?

"Mən!", "Mən!" deyənlərin çoxunun sonralar "Mən?" dediyini o qədər eşitmişəm ki...

Rasif TAHİROV

AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ YELKƏNÇİLƏRİMİZİN AVROPA ÇEMPİONATINDA İŞTİRAKINA DA DƏSTƏK VERİB

Yelkənli İdman Federasiyasının "Laser" sinfi üzrə milli komandası Yunanıstanın Patra şəhərində keçirilən yelkənli qayıqların "Laser4.7" sinfi üzrə Avropa Çempionatında iştirak edib.

Yelkənçilərimizin ilk dəfə iştirak etdiyi bu yarışda Azərbaycan komandasına Yelkənli İdman Federasiyasının idman üzrə koordinatoru Burcu Algon Giorgianni rəhbərlik edib. Heyətin məşqçisi isə Tuğçe Subaşı olub.

Çempionatda Azərbaycanı yelkənçilərimiz Rafiq Orucov, Fərid Məmmədzadə və Ammar Hatim təmsil ediblər.

Qeyd edək ki, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC həmişə olduğu kimi, yelkənçilərimizin Avropa çempionatında iştirakına da dəstək verib.

BAKIDA MÖHTƏŞƏM "FORMULA 1" AZƏRBAYCAN QRAN-PRİSİ

"Mercedes" komandasının pilotu Luis Hamilton aprelin 29-da "Formula 1" üzrə dünya çempionatının dördüncü mərhələsinin - Azərbaycan Qran-Prisinin qalibi olub.

"Formula 1" Azərbaycan Qran-Prisində on komanda mübarizə aparıb. Hər komanda iki pilotla təmsil olunub.

Aprelin 28-də keçirilən sıralanma turundan sonra Qran-Prinin start düzülüşü aşağıdakı kimi olub: Sebastian Fettel ("Ferrari"), Luis Hamilton ("Mercedes"), Valtteri Bottas ("Mercedes"), Daniel Rikkardo, Maks Ferstappen (hər ikisi "Red Bull Racing"), Kimi Raykonnen ("Ferrari"), Esteban Okon, Serxio Peres (hər ikisi "Force India"), Karlos Sainz ("Renault"), Lans Stroll, Sergey Sirotkin (hər ikisi "Williams"), Fernando Alonso ("McLaren"), Çarles Lekler ("Sauber"), Niko Hulkenberq ("Renault"), Kevin Maqnussen ("Haas"), Stoffel Vandurn ("McLaren"), Pyer Qasli ("Toro Rosso"), Markus Eriksson ("Sauber"), Brendon Hartli ("Toro Rosso") və Roman Qrojan ("Haas").

"Formula 1" Azərbaycan Qran-Prisinin startında həyəcanlı anlar yaşanıb. Yarış başlayan kimi elə birinci dövrədə iki pilot mübarizəni dayandırmalı olub. "Force India" komandasının pilotu Esteban Okon və "Williams" komandasının pilotu Sergey Sirotkin qəza törədiblər. Nəticədə hər iki pilotun bolidi yararsız hala düşüb. Hər iki pilot birinci dövrəni tamamlamadan yarışda mübarizəni davam etdirib.

"McLaren" komandasının pilotu Fernando Alonsonun bolidinin ön və arxa təkərləri partlasa da, o, pit-stopa gedərək təkərləri dəyişə bilib və mübarizəni davam etdirib.

"Renault" komandasının pilotu Niko Hulkenberq inamla mübarizə aparsa da, bolidinin təkərinin partlamasından sonra divara çırpılması nəticəsində yarışı dayandırmalı olub. Əlli bir dövrədən ibarət yarışın 12-ci dövrəsinə qədər artıq üç pilot yarışdan kənarda qalıb.

"Red Bull Racing" komandasının iki pilotu eyni anda yarışla vidalaşıb. Daniel Rikkardonun bolidi Maks Ferstappenin bolidinə arxadan çırpılıb. M.Ferstappen düzgün manevr etmədiyinə görə, D.Rikkardo əyləcə bassa da, sürəti nizamlaya bilməyib və bolidlər toqquşub. Beləliklə yarışın bitməsinə 10 dövrə qalmış artıq 5 pilot üçün mübarizə başa çatıb.

"Haas" komandasının pilotu Roman Qrojanın idarəetməni itirməsi nəticəsində onun bolidi baryerə toxunub və yararsız hala düşüb.

"Mercedes"in pilotu Valtteri Bottas lider olduğu halda sona üç dövrə qalmış təkərinin sıradan çıxması ilə yarışı dayandırmaq məcburiyyətində qalıb. Bunun nəticəsində onun komanda yoldaşı Luis Hamilton liderliyə yüksəlib.

Əlli bir dövrədən ibarət yarışın yekununda "Mercedes"in pilotu L.Hamilton bütün rəqiblərini qabaqlayaraq birinci olub. Bununla da britaniyalı pilot cari mövsümdə ilk qələbəsini Bakıda qazanıb.

"Ferrari"nin pilotu Kimi Raykkonen ikinci, "Force India"nın sürücüsü Serxio Peres isə üçüncü olublar.

"Formula 1" Azərbaycan Qran-Prisində ən yaxşı dövrənin sahibi "Ferrari"nin pilotu Sebastian Fettelə məxsus olub. O, 37-ci dövrəni saatda 205 kilometr sürətlə 1 dəqiqə 45,149 saniyəyə qət edib.

Qalibin şərəfinə Almaniyanın və Böyük Britaniyanın dövlət himnləri səsləndirilib.

Sonra qaliblərə mükafatlar təqdim olunub.

Bakı trekində qalib gəlməklə Luis Hamilton "Ferrari"nin sürücüsü Sebastian Fetteli qabaqlayaraq çempionatda liderliyi ələ keçirib. Bu qələbə sayəsində xallarının sayını 70-ə çatdıran britaniyalı pilot birinci sıraya yüksəlib. İkinci sıraya geriləyən S.Fettelin aktivində 66 xal var. Azərbaycan Qran-Prisində ikinci yeri tutan "Ferrari"nin sürücüsü Kimi Raikkonen xal ehtiyatını 48-ə çatdıraraq üçüncü sırada qərarlaşıb. Qran-Pridə üçüncü olan "Force India" komandasının pilotu Serxio Peres isə 9-cu sıraya yüksəlib.

Komandaların yarışında isə "Ferrari" komandası 114 xalla birinci sıradadır. "Mercedes" 110 xalla ikinci, "Red Bull Racing" isə 55 xalla üçüncü sırada qərarlaşıblar.

Xatırladaq ki, 2016-cı ildə Bakıda keçirilən "Formula 1" Avropa Qran-Prisinin qalibi "Mercedes"in almaniyalı pilotu Niko Rosberq olub. Ötən il isə "Formula 1" Azərbaycan Qran-Prisi "Red Bull Racing" komandasının avstraliyalı sürücüsü Daniel Rikkardonun qələbəsi ilə başa çatıb.

"Formula 1" üzrə növbəti Qran-Pri mayın 11-13-də İspaniyada keçiriləcək.

KARATEÇİLƏRİMİZ İSTANBULDA ÜÇ QIZIL MEDAL QAZANIBLAR

İstanbulda karate üzrə doqquzuncu şotokan dünya çempionatı keçirilib.

"Şobu İppon", "WKF kumite" və "sambom kumite" versiyaları üzrə keçirilən yarışda 31 ölkənin idmançıları iştirak ediblər.

Ölkəmizi təmsil edən "Qaraqaplan" klubunun idmançıları Mədinə Kazımova (25 kq-dan yuxarı) və Yusif Cəfərov (30 kq) bütün rəqiblərini məğlub edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Digər təmsilçimiz Orxan Musayev isə komanda kumite yarışlarında birinci olub.

YENİYETMƏ CÜDOÇULARIMIZ TUNİSDƏN 15 MEDALLA QAYIDIBLAR

Tunisdə yeniyetmə cüdoçular arasında Afrika kuboku uğrunda beynəlxalq turnir keçirilib. Yarış bu ilin oktyabrında Argentinada baş tutacaq yeniyetmələrin Olimpiadasına lisenziya xalları verir.

Azərbaycan Cüdo Federasiyası xəbər verir ki, Azərbaycan cüdoçuları beynəlxalq turnirdə 5 qızıl, 6 gümüş və 4 bürünc medal qazanıblar. Vüsalə Kərimova (44 kq), Aytac Qardaşxanlı (48 kq), Mirağa Hacıyev (50 kq), Vüqar Talıbov (66 kq), Yaqub İsmayılzadə (90 kq) bütün rəqiblərinə qalib gələrək çempion olub. Səbinə Əliyeva (48 kq), Ülviyyə Bayramova (52 kq), Südabə Ağayeva (63 kq), Nicat Məmmədli (50 kq), İbrahim Ağakişiyev (81 kq), Toğrul Salmanov (+90 kq) gümüş, Fəridə Səfərova (52 kq), Zaməddin Poladov, Nəriman Mirzəyev (hər ikisi 60 kq) və Hacıbala Cəbrayılov (73 kq) bürünc medal qazanıblar.

FƏSİL DƏYİŞİKLİYİ ZAMANI YARANAN HALLAR

Yazın gəlişi və havaların isinməsi təbiəti canlandırdığı kimi, bir sıra xəstəliklərin də fəallaşmasına səbəb olur. Gecələrin qısalması, günlərin uzanması, saatların dəyişməsi və digər faktorlar orqanizmin hormon tarazlığını dəyişərək yuxu nizamına təsir edir. Baş verən dəyişikliklər isə orqanizmin kifayət qədər dincələ bilməməsi, davamlı yorğunluq və unutqanlıq kimi nəticələr verir.

Yazda ən çox rast gəlinən problemlər içərisində allergik xəstəliklər birinci sırada dayanır. Statistikaya görə, dünyada hər on nəfərdən ikisi allergiyadan əziyyət çəkir.

Allergik xəstəliklərin yaranma səbəbi havada uçuşan polen adlı çiçək tozlarıdır. Mövsümi allergiya nəticəsində gözdə qızarma, qaşınma və reaksiya ilə əlaqədar olaraq damar genişlənməsi əmələ gətirir. Bu baxımdan şiddətli yanma, işığa baxa bilməmək və bulanıq görmə yaranır. Bahar aylarında sıx müşahidə olunan göz soyuqdəymələri sadəcə allergik mənşəli deyil, keçici də ola bilər. Tozlardan qorunmaq üçün yaz və yay aylarında gün eynəklərindən istifadə etmək məsləhətdir.

Gözə əllə təmasdan mümkün qədər uzaq olmaq ən vacib şərtlərdən biridir. Bahar yorğunluğunun qarşısını almaq üçün günəşin erkən çıxmasından faydalanaraq yuxudan tez durmaq, hər gün eyni saatda yatıb qalmağa çalışmaq, gündəlik həyatda daha fəal olmaq, sutka ərzində bir neçə dəfə idmanla məşğul olmaq, piyada gəzməyə üstünlük vermək, hazır qidalar əvəzinə təzə meyvə-tərəvəz qəbul etmək lazımdır. Psixoloji baxımdan toparlanmaq, müsbət əhvali-ruhiyyəyə köklənmək də müsbət əhəmiyyətə malikdir.

ALLAH RƏHMƏT ELƏSİN

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyi və Həmkarlar İttifaqı Komitəsi "AXDG" QSC sədrinin birinci müavininin müşaviri Daməd İmanova, qardaşı

Hümbət Bahadur oğlu İmanovun

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyi və Həmkarlar İttifaqı Komitəsi Keyfiyyət, sağlamlıq, əməyin təhlükəsizliyi və ətraf mühitin mühafizəsi (KSƏTƏMM) departamentinin yanğına qarşı profilaktika üzrə təlimatçısı Elçin Bayramova, anası

Fəridə xanımın

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyi və Həmkarlar İttifaqı Komitəsi "Naxçıvan" gəmi-bərəsinin kapitanı Nahid Azayevə, anası

Sərina xanımın

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SAĞLAM HƏYAT TƏRZİNİN QAYDALARI

Sürətli həyat tempi, ekologiyanın pisləşməsi, informasiya və texniki xarakterli gərginliyin artması orqanizmə mənfi təsir göstərir. Ona görə də sağlamlığı qorumaq qaydalarını bilmək və ona əməl etmək vacibdir. Sağlam həyat tərzi gümrah yaşamağı və xəstəliklərdən uzaq olmağı nəzərdə tutur.

AZƏRTAC sağlam həyat tərzinin bəzi şərtlərini xatırladır.

Düzgün qidalanma sağlam həyat tərzinin ilkin şərtlərindən biridir, çünki vitamin, mikroelement və həyat enerjisini qidalardan alırıq. Bunu nəzərə alaraq kalorili, faydalı və ekoloji cəhətdən təmiz qidalar qəbul edilməsinə xüsusi fikir vermək lazımdır. Qidanın normadan artıq qəbul edilməsi xoşagəlməz hallara səbəb ola bilər.

Gün ərzində 2-3 litr maye qəbul edilməlidir. Yeməkdən yarım saat əvvəl su içmək lazımdır, yemək əsnasında və qidalanmadan dərhal sonra su içilməməlidir.

Erkən yaşlardan fiziki cəhətdən fəal həyat sürmək vacibdir. Buraya idman, qaçış, üzgüçülük, hərəkətli oyunlar və s. daxildir.

Müsbət fikirlər və nikbin əhvali-ruhiyyə sağlamlıq üçün əhəmiyyətlidir. Elmi təcrübələr göstərir ki, optimistlər daha uzun və xoşbəxt ömür sürürlər.

Zərərli vərdişlərdən uzaq olmaq da sağlamlığa zəmanətdir. Ümumiyyətlə, zərərli vərdişlər həyat fəaliyyətinin aşağı düşməsinə ciddi təsir göstərən səbəblərdən sayılır. Meşədə, təmiz havada gəzmək, günəş vannası qəbul etmək də çox faydalıdır.

Elementar gigiyenik qaydalara əməl etmək, vaxtlı-vaxtında tibbi müayinələrdən keçmək də sağlam həyat tərzinin bir parçasıdır.

Beynin qidalanması da bu sahədə çox mühüm məsələlərdən biridir. Bundan ötrü kitab oxumaq, krossvord həll etmək, elm və təhsilə aid verilişlərə, sənədli filmlərə baxmaq, səyahətə çıxmaq, xarici dil öyrənmək lazımdır.

Sağlam həyat tərzinin qaydaları sadədir, əslində ona əməl etmək də çətin deyil.

BEYİN FƏALİYYƏTİNİ YAXŞILAŞDIRAN SƏBƏBLƏR

Elm adamlarının apardığı tədqiqatlar nəticəsində bəzi iş və hobbilərin zəka səviyyəsini artırdığı məlum olub.

Zəkaya müsbət təsir göstərən bəzi hobbi növlərini diqqətinizə təqdim edirik.

Musiqi alətində ifa etmək və musiqi dinləmə hafizə tutumunu artırır. Musiqi həm də təhtəlşüura səbirli və dözümlü olmağı aşılayır. Stressin qarşısını alan meditasiya da hafizəyə müsbət təsir göstərir. Bu sahədə mütaliə ilk yerlərdən birini tutur.

Beynin inkişafında bədən əzələlərinin də təsiri böyükdür. Ona görə də idman hərəkətləri etmək yolu ilə əzələlərin möhkəmləndirilməsi vacib məsələlərdən biridir və bunun nəticəsində beyin elastikləşərək sağlamlaşır. İdman yarışlarının izlənilməsi də beyin funksiyalarına müsbət təsir edir. Sudoku, krossvordlar və digər oyunlar beynin işləməsinə səbəb olur.

Yeni sözlər, qrammatika və dil öyrənmək də zəkanı artıran, beynin sağlamlığını təmin edən amillərdən sayılır. Xarici şifahi dil, zəka səviyyəsi yüksək olanların planlaşdırma, problem həll etmə və qərar vermə bacarığını inkişaf etdirdiyi də sübut olunub. Çox yazı yazmaq da beynin işləməsinə səbəb olur, xəyal gücünü və təxəyyülü zənginləşdirir. Sürətlə qərar vermək və yeni təcrübələr düşünməyə sövq edir. Tez-tez səfərə çıxmaq, yeni yerlər görmək, yeni tanışlıqlar da beynin yaxşı işləməsinə müsbət təsir edir.

AYAQYALIN GƏZMƏK MASAJ ROLU OYNAYIR

Ayaqyalın gəzmək müalicə üsulu kimi qısa müddətdə dünyada geniş yayılıb. Küçələrdə yatan evsiz insanlar istisna olunmaqla ayaqqabıdan imtina edənləri barefoot, yəni ayaqyalın adlandırırlar. Həmin adamların ən bahalı ayaqqabı almağa imkanları var, lakin onlar bu seçimlərini sağlamlıqlarını qorumaq istəyilə izah edirlər.

Ayaqyalın gəzməkdən müalicə üsulu kimi istifadə etmək Almaniya, Belçika, İngiltərə və digər Avropa ölkələrində daha çox populyarlaşıb. Xarici ölkələrdə onlar üçün xüsusi parklar, gəzinti zolaqları salınıb, yollara kiçik daşlar və təmiz yumşaq qum tökülüb. Həmin sahədə gəzənlər ayaqyalın gəzməyin sağlamlığı müsbət təsir göstərdiyini söyləyir və bunu ənənəvi tibbi üsullardan biri kimi qəbul edirlər.

Pəncə altında çoxlu aktiv bioloji nöqtələr var ki, ayaqyalın gəzəndə əsas orqan və sistemlərdə əlaqəli nöqtələr masaj olunaraq daxili orqanların fəaliyyətini yaxşılaşdırır. Aparılan araşdırmalar sübut edib ki, ayaqyalın gəzmək immun sistemi, sümük və əzələləri möhkəmləndirir, stress və nevroz xəstəliklərində sinir sisteminin sakitləşməsinə kömək edir, qan dövranını yaxşılaşdırır və göbələk xəstəliklərinin yaranmasının qarşısını alır.

Yastıpəncəli uşaqlar üçün ayaqyalın gəzmək profilaktik müalicə rolu oynayır, ürək-damar xəstəliklərinin yaranmasının qarşısını alır, beynin fəaliyyətini və yaddaşı gücləndirir. Lakin bəzi xəstəliklər zamanı, xüsusilə diabet xəstələri, böyrək xəstəliyindən əziyyət çəkənlərə ayaqyalın gəzmək məsləhət görülmür.

BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1029, Bakı şəhəri,
Heydər Əliyev prospekti, 152
TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76;
30-67 (daxili)

Qəzetin təsisçisi:
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar
Cəmiyyəti

Qəzet "Dəniz" qəzetinin
kompyuter mərkəzində
yığılmış, səhifələnmiş və
"Azərbaycan" nəşriyyatında
çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 1352